33/34 (1289) 24 avqust - 6 sentyabr 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet Qiyməti razılaşma yolu ilə Qəzet 1999-cu ildən çıxır

## AZƏRBAYCANI VƏ ÖZBƏKİSTANI QƏDİM TARİX BİRLƏŞDİRİR



"Azərbaycanı və Özbəkistanı qədim tarix birləşdirir və bu təməl qarşılıqlı fəaliyyətin inkişafı üçün əsasdır. Sevindirici haldır ki, bütün istiqamətlərdə əməkdaşlıq çox səmərəli və məhsuldar gedir".

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev avqustun 22-də özbəkistanlı həmkarı Şavkat Mirziyoyevlə keçirdiyi geniş tərkibdə görüşdə deyib. Son vaxtlar ölkələrimiz arasında dövlətlərarası münasibətlərin ən yüksək səviyyəyə çatdığını vurğulayan dövlətimizin başçısı qeyd edib: *"Özbəkistana dövlət səfərimi və mənə göstərilən qonaqpərvərliyi məmnunluqla xatırlayıram. Həmçinin demək istəyirəm ki, Özbəkistanın şahidi olduğum sürətli inkişafı, transformasiya, islahatlar, ölkənin Mərkəzi Asiya regionunun güclü sənaye dövlətinə çevrilməsi məndə dərin təəssürat yaratdı".*

## ÖZBƏKİSTANDA HEYDƏR ƏLİRZA OĞLUNUN XATİRƏSİNƏ TAMAMİLƏ FƏRQLİ YANAŞILIR

"Bu il əlamətdar ildir. Çünki Ulu Öndər, Azərbaycanın rəhbəri, Azərbaycan xalqının oğlu Heydər Əliyevin yüz illik yubileyi Özbəkistanda çox yüksək səviyyədə keçirilib".

Bu sözləri Özbəkistan Prezidenti Şavkat Mirziyoyev avqustun 22-də Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi geniş tərkibdə görüşdə söyləyib. Özbəkistanda Heydər Əlirza oğlunun xatirəsinə tamamilə fərqli yanaşıldığını deyən Prezident Mirziyoyev bildirib: *"Hesab edirəm ki, görülən bütün işləri Özbəkistan xalqı tamamilə başqa cür dəyərləndirir. Onu görən, onunla qarşılaşan, onunla işləyən yaşlı nəsil də bizim Özbəkistan gənclərinə çatdırıblar ki, əslində, Azərbaycanın və Özbəkistanın həyatın həmin çətin anlarında qarşıya qoyulan hədəflərə çatması, Azərbaycan və Özbəkistan rəhbərliyinin bir-birini başa düşməsi, çox şey əldə etməsi üçün Heydər Əlirza oğlu uzun illər öncədən zəmin yaradıb. Onun bu gün bütün dünyada ... əlindən gələni edib".*

## AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN MÜNASİBƏTLƏRİ ƏN YÜKSƏK SƏVİYYƏYƏ ÇATDIRIB



"Biz bu gün görüşlər və danışıqlar çərçivəsində mahiyyətcə münasibətlərimizin inkişafının gələcəyini müəyyən etdik".

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə danışıqlardan sonra mətbuata bəyanatında bildirib.

Dövlətimizin başçısı vurğulayıb ki, artıq əldə edilən nəticələr iki ölkənin doğru yolda olduğunu göstərir.

*"Bu gün nümayəndə heyətlərinin üzvlərinin qarşıdakı, fikrimcə, iki-üç ildə gözlədiklərimizin çərçivəsində bizə məruzə etdikləri deməyə əsas verir ki, ölkələrimiz arasındakı münasibətləri ən yüksək səviyyəyə çatdırmışıq. Təsadüfi deyil ki, bu gün imzalanan sənədlərdən biri Ali Dövlətlərarası Şuranın yaradılması barədə sənəddir. Bu, münasibətlərin yüksək səviyyəsidir və ölkələrimiz arasında qardaşlıq münasibətlərinin göstəricisidir, həmçinin onu göstərir ki, gündəlik kifayət qədər genişdir"*, - deyə dövlətimizin başçısı vurğulayıb.

## AZƏRBAYCANIN VƏ ÖZBƏKİSTANIN ENERJİ ŞİRKƏTLƏRİ SIX QARŞILIQLI FƏALİYYƏT GÖSTƏRİRLƏR

"Azərbaycanın və Özbəkistanın enerji şirkətləri sıx qarşılıqlı fəaliyyət göstərirlər".

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə mətbuata bəyanatında bildirib.

Dövlətimizin başçısı qeyd edib: *"Biz nəqliyyat-logistika sahəsində yük axınının gücləndiyini, ən başlıcası, bu istiqamətdə əməkdaşlıq potensialının artdığını görürük. Biz bu gün bütün istiqamətlər üzrə uğurlu qarşılıqlı fəaliyyəti uzun illər öncədən müəyyən edəcək məsələləri müzakirə etdik".*

## ALİ DÖVLƏTLƏRARASI ŞURANIN YARADILMASI YÜKSƏK ETİMADIN GÖSTƏRİCİSİDİR

"Əgər biz bu gün razılaşdığımız hər şeyi yerinə yetirsək, onlar həyata keçiriləcək, həm Özbəkistan iqtisadiyyatı, həm də Azərbaycan iqtisadiyyatı üçün uğurlar olacaq".

Bu fikirləri Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Prezidenti İlham Əliyevlə mətbuata bəyanatda səsləndirib.

*"Bizim yaratdığımız Ali Dövlətlərarası Şura etimadın ən yüksək səviyyəsi və razılaşdırdığımız strateji istiqamətlərin ən yüksək səviyyədə davamıdır. Ona görə də düşünürəm ki, ölkə Prezidenti seçildikdən sonra ilk səfərimdən çox məmnunam"*, - deyə Özbəkistan Prezidenti əlavə edib.

## ÖZBƏKİSTAN AZƏRBAYCANIN UĞURLARINA ÇOX SEVİNİR

"Yaxın qonşular, yaxın ölkələr kimi Azərbaycanın uğurları ilə fəxr edir, onlara sevinirik".

Bu sözləri Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Prezidenti İlham Əliyevlə mətbuata bəyanatda söyləyib. Özbəkistanda Azərbaycanın beynəlxalq arenada nüfuzunu, ümumiyyətlə son illərdə bütün istiqamətlərdə uğurları ilə qürur duyduqlarını vurğulayan Ş.Mirziyoyev deyib: *"Belə ki, yaxın qonşular kimi biz çox sevinirik və uğurlar arzu edirik".*

**"Azərbaycan-Özbəkistan münasibətləri öz inkişafının yüksək mərhələsindədir. Türk dünyasının dinamik inkişaf edən ölkələri - Azərbaycan və Özbəkistan iqtisadi və sosial tərəqqiyə xidmət edən birgə layihələr həyata keçirirlər". Bu sözləri Milli Məclisin deputatı, "Azərbaycan-Özbəkistan Dostluq Cəmiyyəti" İB-nin üzvü, akademik Ziyad Səmədzadə deyib. Bu barədə daha ətraflı gələn sayımızda.**

## AZƏRBAYCAN-MACARISTAN MÜNASİBƏTLƏRİ UĞURLA İNKİŞAF EDİR

Avqustun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Budapeştdə Macarıstanın Baş naziri Viktor Orban ilə görüşü olub.



Görüşdə Azərbaycan ilə Macarıstan arasında enerji, o cümlədən neft-qaz sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olunub, Azərbaycan qazının Macarıstan bazarına çatdırılmasının əhəmiyyəti vurğulanıb. Qida sənayesi sahəsində Macarıstanın Azərbaycana investisiya qoyuluşu, əczaçılıq sənayesi sahələrində əməkdaşlıqla bağlı əldə olunmuş müsbət dinamika qeyd edilib, Macarıstan aviadaşıyıcısı vasitəsilə Bakı-Budapeşt reyslərinin həyata keçirilməsinin önəminə toxunulub, ümumilikdə ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olunub. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən bərpa və quruculuq işlərində Macarıstan şirkətlərinin fəaliyyətə başlaması müsbət addım kimi qiymətləndirilib və bu istiqamətdə daha böyük imkanların olduğu vurğulanıb.

(davamı 2-ci səhifədə)

## BAKIDA "DIAMED" DƏRMAN İSTEHSALI ZAVODU İSTİSMARA VERİLİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Pirallahı rayonunda "Diamed" dərman istehsalı zavodunun açılışında iştirak edib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Diamed Development Group" MMC-nin təsisçisi Aytən Quliyeva dövlətimizin başçısına görülən işlər barədə məlumat veriblər.

Ölkəmizdə müasir sənaye müəssisələrinin, yeni istehsal sahələrinin yaradılması nəticəsində daxili tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artır, ixrac imkanları genişlənir. Belə müəssisələrdən biri də "Diamed Development Group" MMC-nin Pirallahı rayonunda yaradılan dərman zavodudur.

Qeyd edək ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2006-cı ildə fəaliyyətə başlayan "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin yaradılmasının əsas məqsədi mövcud və yeni kommersiya müəssisələrinə yerli və xarici investorlar cəlb etməklə və öz vəsaiti hesabına müddətli investisiya qoyuluşları vasitəsilə ölkəmizdə iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsidir.

Bu müəssisəyə dövlət tərəfindən digər dəstək tədbirləri də göstərilib. Belə ki, layihənin reallaşması üçün İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 6 milyon manat güzəştli kredit verilib. Sahibkarlığın inkişafına digər bir dövlət dəstəyi çərçivəsində İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş investisiya təşviqi sənədi sayəsində müəssisə idxal etdiyi avadanlıqlara görə 1,3 milyon manat güzəşt əldə edib.

Müəssisədə istehsal edilən məhsulların yerli bazarın tələbatını ödəməsi ilə yanaşı, Rusiya, Gürcüstan və Orta Asiya ölkələrinə ixracı da nəzərdə tutulur.



(əvvəli 1-ci səhifədə)

Elm-təhsil sahəsində əməkdaşlıq qeyd edilib, xüsusilə Macarıstanda azərbaycanlı tələbələrə ali təhsil üzrə təqaüdlərin verilməsi təqdir olunub, gələcəkdə peşə təhsili sahəsində də əməkdaşlıq məsələləri xüsusi vurğulanıb.

Söhbət zamanı, həmçinin Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerji sahəsində strateji tərəfdaşlığa dair Sazişin imzalanmasının və Qara dənizin dibi ilə elektrik xəttinin çəkilməsi layihəsinin həyata keçirilməsi istiqamətində səylərin davam etdirilməsinin önəmi qeyd olunub, Orta Dəhlizin əhəmiyyəti və yükdaşımaların artması vurğulanıb.

Görüşdə ölkələrimizin Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı qeyd edilib.

* * * *

Avqustun 20-də Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü xanım Jelka Tsviyanoviç və Serb Respublikasının Prezidenti Milorad Dodik ilə görüşü olub. Görüşdə Prezident İlham Əliyevin bu ilin aprelində Bosniya və Herseqovinaya rəsmi səfəri və səfər zamanı aparılmış müzakirələrin önəmi vurğulanıb, həmin səfər çərçivəsində Azərbaycan ilə Bosniya və Herseqovina arasında strateji tərəfdaşlıq haqqında Bəyannamənin imzalanmasının önəmi qeyd edilib.

Bəyannamədə qarşıya qoyulan vəzifələrin hazırda həyata keçirilməsi istiqamətində görülən işlər barədə fikir mübadiləsi aparılıb.

* * * *

Avqustun 20-də Macarıstanın paytaxtı Budapeştdəki Milli Atletika Mərkəzində atletika üzrə dünya çempionatının kişilər arasında 100 metr məsafəyə qaçış yarışının finalı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Macarıstanın Baş naziri Viktor Orban ilə birlikdə finalı izləyiblər.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədov, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani, Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü xanım Jelka Tsviyanoviç də yarışa baxıblar.

* * * *

Avqustun 20-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Budapeştdə Macarıstanın Milli bayramı münasibətilə verilən ziyafətdə iştirak ediblər.

# Ermənistanın Təhlükəsizlik Şurasına müraciəti beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün apardığı kampaniyanın tərkib hissəsidir

"Ermənistanın humanitar məsələ kimi təqdim etməyə çalışdığı əslində Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə xələl gətirmək üçün aparılan təxribat xarakterli və məsuliyyətsiz siyasi kampaniyadır". Bunu Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev BMT Təhlükəsizlik Şurasının iclasında çıxışında deyib.




Ermənistanın ölkəmizə qarşı təbliğ etdiyi "blokada" və ya "humanitar böhran" ilə bağlı bütün əsassız və sübutu olmayan iddialarını qətiyyətlə rədd edən daimi nümayəndə bildirib: "Məhz Ermənistan 30 ilə yaxın dövrdə işğalçı qüvvələrin Azərbaycan ərazisindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını birmənalı şəkildə tələb edən 1993-cü ilin müvafiq dörd qətnaməsinə və Təhlükəsizlik Şurasının sədrinin bir sıra bəyanatlarına açıq-aşkar məhəl qoymayıb. Bu xüsusda, Ermənistanın hərəkətləri əvvəlcədən planlaşdırılmış siyasi riyakarlığın təcəssümündən başqa bir şey deyil və onun Təhlükəsizlik Şurasına müraciəti aylar ərzində beynəlxalq ictimaiyyəti manipulyasiya etmək və çaşdırmaq üçün apardığı kampaniyanın tərkib hissəsidir. Əgər Ermənistan yardım etmək istəyində səmimi olsaydı, bu, dərhal baş verərdi. Bu, həqiqətən də bu yaxınlarda - bir neçə gün əvvəl beynəlxalq aktorların, o cümlədən Təhlükəsizlik Şurasının bəzi üzvlərinin fəal iştirakı nəticəsində praktiki olaraq mümkün idi. Bu, təkcə Ermənistanın imtinası nəticəsində baş tutmadı".

# "Laçın" sərhəd-buraxılış məntəqəsi Azərbaycanın suverenliyini və təhlükəsizliyini qorumaq məqsədilə yaradılıb

"Laçın dəhlizi" adlanan yol Azərbaycanın suveren ərazisi daxilində, heç bir ekstraterritorial statusu olmayan, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, ilk növbədə, vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin daşınması üçün nəzərdə tutulmuş yoldur. Azərbaycan üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərə sadiq qalaraq bu yolda hərəkətə icazə verib".

Bunu Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev BMT Təhlükəsizlik Şurasının Azərbaycanın Qarabağ bölgəsində guya yaranmış "humanitar böhran"ın müzakirəsinə dair təcili iclasında çıxışında deyib.

Y.Əliyev bildirib ki, sərhəd-buraxılış məntəqəsi Azərbaycanın suverenliyini və təhlükəsizliyini qorumaq üzrə təməl hüququ çərçivəsində, Ermənistanın bu marşrutdan Azərbaycan ərazisində qeyri-qanuni dislokasiya olunmuş 10 minə yaxın hərbçinin rotasiyası, silah, sursat, mina və xarici terrorçuların daşınması, habelə bu ərazidən təbii sərvətlərin qanunsuz çıxarılması və daşınması kimi qeyri-qanuni hərbi və digər fəaliyyətlər üçün ardıcıl və açıq-aşkar sui-istifadə etməsinin qarşısını almaq məqsədilə yaradılıb. Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il 6 iyul tarixli yekdil qərarı Ermənistanın nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı müvəqqəti tədbir görmək tələbini rədd edərək, Ermənistanın "Laçın" keçid məntəqəsinin qanunsuz olması ilə bağlı iddialarını qəti şəkildə təkzib edib.

# Qarabağ ermənilər anlamalıdılar ki, danışıqlar aid olduqları ölkənin – Azərbaycanın şərtləri əsasında aparılmalıdır

Avqustun 16-da Nyu-Yorkda BMT Təhlükəsizlik Şurasının Azərbaycanın Qarabağ bölgəsində guya yaranmış "humanitar böhran"ın müzakirəsinə dair təcili iclası, erməni lobbisinin



bütün gücünü ortaya qoymağa çalışdığı toplantısı keçirilib. Əlbəttə, Ermənistanın xaricilərdən ibarət diplomatiya, informasiya "ordusu" sadəcə iclasdakılarla kifayətlənmirdi. Belə ki, şərti olaraq **"Məzlum Ermənistan"** adlandıra biləcəyimiz BMT-dəki teatr səhnəciyində kulislər arxası da boş deyildi - burada Okampo, Lindsi Snell, Devid İqnatius və s. hüquqşünas və jurnalistlər olub.

Bununla belə, İrəvanın öz ordusu ilə gəldiyi iclas tamamilə nəticəsiz qaldı: nə çox gözlədikləri anti-Azərbaycan qətnaməsi, nə də hər hansı birgə bəyanat. Xüsusilə Fransa və ABŞ nümayəndələrinin böyük canfəşanlığına baxmayaraq, ümumən tədbir iştirakçıları sadəcə olaraq **"Ermənistanın adına üzülməyi"** seçdilər və dağılışdılar.

Sözsüz ki, iclasın sadəcə adi müzakirədən uzağa getməyəcəyi Azərbaycanın daimi nümayəndəsi Yaşar Əliyevin çoxəhatəli, əsaslandırılmış çıxışından sonra dəqiqləşdi.

Azərbaycanlı diplomat elə nitqinin əvvəlində BMT Təhlükəsizlik Şurasının Ermənistan üçün sui-istifadə platformasına çevrildiyinə işarə edib.

Y.Əliyevin fikirlərini onun türkiyəli həmkarı Sədat Önal da dəstəkləyib:

"Türkiyə Ermənistanın BMT Təhlükəsizlik Şurası kimi beynəlxalq meydandan Laçın dəhlizi mövzusu daxil olmaqla siyasi motivli ittihamları bəyan etmək üçün istifadə cəhdlərindən narahatdır".

Qardaş Türkiyədən başqa, iclasda Azərbaycanın mövqeyini ən azından dinləməyə çağırış edən ölkələr arasında Albaniya və Braziliya nümayəndələrinin da olduğunu qeyd etmək lazımdır. Diplomatlar BMT-dəki həmkarlarına Xankəndi-Ağdam yolunun açıq olduğunu xatırladıblar. Bu çıxışları ilə onlar Ermənistana eyham vurublar ki, əgər İrəvanın **"humanitar tələbatı"** varsa, Azərbaycanın təklif etdiyi yolu seçməlidir.

***"Humanitar tələbatlar siyasiləşdirilməməli və digər məsələlərin çözümü üçün sui-istifadə olunmamalıdır. Humanitar tələbatlar hər yerdə, həmçinin Qarabağ regionunda təmin olunmalıdır... Fikrimizcə, söhbət humanitar məsələdən gedirsə, mümkün olan hər şeyi, bütün variantları nəzərdən keçirmək lazımdır. Bura digər yollar, həmçinin təklif olunan Xankəndi – Ağdam yolu da daxildir"***, - Albaniyanın BMT-dəki daimi nümayəndəsi Fərid Hoca vurğulayıb.

Toplantı iştirakçılarının bəzən həqiqət, bəzən təhriflərə müraciət etmələrinə baxmayaraq, onların hamısının bir ortaq nöqtəsi var idi: Azərbaycanın ərazi bütövlüyü məsələsi.

Beləliklə, Ermənistanın BMT TŞ kimi dünya səviyyəli platformanı teatr səhnəsinə çevirmək cəhdləri boşuna oldu. Ermənistan xarici işlər naziri Ararat Mirzoyan isə Yaşar Əliyevin çıxışından sonra ümumiyyətlə kölgədə qaldı. İrəvanın baş diplomatı növbəti dəfə vətəninə əliboş qayıtmağa məcbur olacaq. Ötən ilin dekabrında da məsələnin BMT TŞ-də qaldırılması cəhdi olmuşdu. Hər iki halda nəticəsiz qaldı. "Paşinyan və co."nun bu uğursuzluğu öz ictimaiyyətinə necə təqdim edəcəyi, təbii ki, maraq doğurur.

Bu iclasdan sonra bir daha təsdiq olundu ki, belə müzakirələrə ehtiyac yox idi, məsələ BMT və digər platformalarda deyil, yerində həll olunmalıdır. Qarabağ erməniləri anlamalıdır ki, başqa yol yoxdur: danışıqlar aid olduqları ölkənin – Azərbaycanın şərtləri əsasında aparılmalıdır.

# Xarici İşlər Nazirliyi BMT Təhlükəsizlik Şurasında aparılmış müzakirələrə dair bəyanat yayıb

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi avqustun 16-da BMT Təhlükəsizlik Şurasında aparılmış müzakirələrə dair bəyanat yayıb.

Bəyanatı təqdim edirik.

Ermənistanın BMT Təhlükəsizlik Şurasından növbəti dəfə öz şantaj kampaniyası üçün istifadə etmək cəhdi uğursuzluğa düçar oldu. Ermənistanın sözügedən ali orqanı bu cür manipulyasiya və istismar etmək səyləri postmünaqişə dövründə normallaşma gündəliyinin irəli aparılması baxımından qeyri-məhsuldar olmaqla yanaşı, son dərəcə destruktivdir.

Azərbaycan Ermənistanın məsələlərin həll yolunun konstruktiv qarşılıqlı fəaliyyət, habelə beynəlxalq hüququn normalarının və bu çərçivədə götürülmüş öhdəliklərin vicdanla yerinə yetirilməsindən keçdiyini nəhayət ki, anlayacağına ümid edir. BMT Təhlükəsizlik Şurasının çoxsaylı üzvləri tərəfindən vurğulandığı kimi, regionda sülh və sabitliyin əsası həm sözdə, həm də əməldə suverenliyin və ərazi bütövlüyünün tanınmasıdır.

Azərbaycanın müzakirələrdə BMT Təhlükəsizlik Şurasının üzvü olan bir neçə dövlətin, eləcə də Türkiyənin Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin ehtiyaclarını ödəmək üçün məhsulların çatdırılması ilə əlaqədar xüsusilə Ağdam-Xankəndi yolu olmaqla, Azərbaycan tərəfindən təklif olunan bütün marşrutların fəaliyyət göstərməsi ilə bağlı səmimi dialoq və vicdanlı qarşılıqlı fəaliyyətin zəruriliyi barədə verilən bəyanatları yüksək qiymətləndiririk.

Müzakirələr Azərbaycanın Ağdam-Xankəndi yolundan istifadə təklifinin beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılandığını və yüklərin Azərbaycanın Qarabağ bölgəsinə qanuni və şəffaf şəkildə çatdırılmasını təmin etmək üçün Ermənistanın yaratdığı maneələrin qəti şəkildə aradan qaldırılmasının labüdlüyünü bir daha göstərdi.

Bundan başqa, Azərbaycanın legitim təhlükəsizlik narahatlıqlarının bəzi üzv dövlətlər tərəfindən etirafı regionda müəyyən çağırışların aradan qaldırılması istiqamətində perspektivli addımdır.

Azərbaycanın müzakirələrdə qeyd etdiyi kimi, ölkəmiz Ermənistana iki ölkənin bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət əsasında sülh təklif edib. Digər tərəfdən, Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin Azərbaycan Konstitusiyasında nəzərdə tutulmuş, habelə Azərbaycanın tərəfdar çıxdığı insan hüquqları üzrə bütün müvafiq beynəlxalq mexanizmlərə uyğun olaraq, bütün hüquq və azadlıqlarını təmin etməklə bərabərhüquqlu vətəndaş kimi reinteqrasiya siyasətini aparır. Hər iki istiqamətə sadiq olduğumuz kimi, suverenliyimizi və ərazi bütövlüyümüzü BMT Nizamnaməsində və beynəlxalq hüquqda təsbit edilmiş bütün qanuni vasitələrlə qorumaqda da əzmliyik.

Azərbaycan normallaşma gündəliyinin irəli aparılmasında həqiqətən maraqlı olan və bununla da regionda çoxdan gözlənilən sülh və sabitliyə nail olmaq üçün öz töhfəsini vermək istəyən, habelə bu istiqamətdə müvəffəq olan bütün tərəflərlə konstruktiv qarşılıqlı fəaliyyətə sadiqdir.

# Moskvada Xəzər regionunda əməkdaşlıq məsələləri müzakirə edilib

Avqustun 18-də Beynəlxalq Xəzər Günü ilə əlaqədar Rusiyanın xarici işlər naziri Sergey Lavrov Azərbaycanın səfiri Polad Bülbüloğlu, İranın səfiri Kazem Cəlali, Qazaxıstanın səfiri Dauren Abayev və Türkmənistanın səfiri Batır Niyazlıyevlə görüşüb.

Görüşdə Nazir Sergey Lavrov Xəzər dənizi ətrafında mövcud məsələlər haqqında geniş məlumat verib, Xəzərin dayazlaşması probleminə toxunaraq, sözügedən məsələnin Prezident İlham Əliyev tərəfindən 2022-ci il iyunun 29-da Aşqabadda keçirilmiş Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında çıxışı zamanı qaldırıldığını xatırladıb.

Həmçinin Xəzər regionunda çoxşaxəli əməkdaşlıq məsələlərinin geniş spektri ətrafında fikir mübadiləsi aparılıb, Xəzəryanı dövlətlərin əməkdaşlığının daha da genişləndirilməsi üzrə gələcək addımlar, o cümlədən xarici işlər nazirlərinin keçiriləcək görüşünə hazırlıq məsələləri müzakirə edilib.

# XİN Paşinyanın BMT Təhlükəsizlik Şurasında aparılmış müzakirələri təhrif etməsinə münasibət bildirib

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Ermənistanın baş naziri Nikol Paşinyanın avqustun 17-də hökumətin iclasında çıxışı zamanı BMT Təhlükəsizlik Şurasındakı (BMT TŞ) müzakirələri və üzv dövlətlər tərəfindən səslənmiş bəyanatları təhrif etməsinə münasibət bildirib.

Bildirilir ki, bölgədə "humanitar vəziyyət" barədə hazırkı iddiaların aradan qaldırılması üçün Azərbaycan tərəfindən təklif olunmuş Ağdam-Xankəndi yolundan istifadənin əksər üzv dövlətlər tərəfindən dəstəklənməsinə və bu yoldan istifadə edilməsinə çağırışlara baxmayaraq, Ermənistan baş nazirinin bu yoldan istifadəni qəbul etməməsi qarşı tərəfin bölgədə vəziyyəti daha da gərginləşdirmək niyyətindən xəbər verir.

Məlumatda deyilir: ***"Bununla yanaşı, BMT TŞ üzvlərinin əksəriyyətinin vurğuladığı kimi, bölgədə sülh və sabitliyin bərqərar olması üçün həm sözdə, həm də əməldə suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət edilməsinin vacibliyinə baxmayaraq, Ermənistan tərəfinin "bölgədə humanitar vəziyyət", "blokada" kimi bəhanələri təkrarlayaraq destruktiv mövqe sərgiləməsi narahatlıq doğurur. Ermənistan tərəfi anlamalıdır ki, bölgədə sülh və sabitliyin təminatının yolu əsassız iddialarla BMT Təhlükəsizlik Şurasında məsələ qaldırmaqdan yox, ərazi bütövlüyünün və suverenliyin təsdiq olunması və hörmət edilməsi əsasında qonşu ölkələrlə münasibətlərin qurulmasından və sülhün bərqərar olunması üçün Azərbaycanla birbaşa konstruktiv danışıqlardan keçir".***

# Rəcəb Tayyib Ərdoğana olan yüksək etimadın növbəti təsdiqi

(əvvəli keçən sayımızda)

### ƏRDOĞANIN TARİXİ QƏRARI: SEÇKİLƏR TƏXİRƏ SALINMADI

Hələ 2023-cü ilin əvvəllərində Türkiyədə keçiriləcək prezident və parlament seçkilərinin tarixi ilə bağlı fərqli fikirlər səsləndirilirdi. Seçkilər əvvəlcə iyunun 18-də keçirilməli idi, lakin hökumət universitet imtahanları, həcc ziyarəti və yay tətilinin başlaması ilə üst-üstə düşməməsi üçün seçkilərin tarixini bir ay önə çəkdi və Prezident Rəcəb Tayyib Ərdoğan çıxışlarının birində seçkilərin mayın 14-də keçiriləcəyini bəyan etdi. Siyasi təhlilçilər isə bu tarixin təsadüfi seçilmədiyi qənaətində idilər. Məsələ ondadır ki, 73 il öncə 1950-ci il 14 may tarixində Türkiyənin keçmiş baş naziri Adnan Menderes **«Bəsdir! Söz növbəsi millətindir»**, - deyərək 27 il hakimiyyətdə olan CHP-ni məğlub etmişdi.
Bununla belə bu tarixlə bağlı yekun qərar verilmədiyindən seçkilərin 16 və ya 30 apreldə keçiriləcəyi də ehtimal edilirdi.
2023-cü ilin fevral ayının 6-da Türkiyənin 11 vilayətində baş verən dağıdıcı zəlzələ seçkilərin tarixi ilə bağlı müzakirələri yenidən qızışdırdı. Bir çoxları seçkilərin hətta iyunun 18-də belə keçirilməsini qeyri-mümkün hesab etdi. O cümlədən, mediada Türkiyə Ali Seçki Komissiyasının prezident və parlament seçkilərinin təxirə salınması təşəbbüsü ilə çıxış edə biləcəyi haqqında xəbərlər işıq üzü gördü. Çünki zəlzələnin coğrafiyası 11 vilayəti və 10 milyondan çox vətəndaşı əhatə edirdi. Seçkilərin təxirə salınmasına qarşı çıxanlar isə əsasən müxalifət təmsilçiləri idi ki, onlar da dağıdıcı zəlzələni seçkilərdə qalib gəlmək üçün göydəndüşmə fürsət kimi dəyərləndirirdilər. Bu məqsədlə «Millət» İttifaqının təmsilçiləri zəlzələ bölgəsinə çoxsaylı səfərlər edir, keçirdikləri görüşlərdə hakimiyyət orqanlarını zəlzələnin fəsadlarını vaxtında aradan qaldırmamaqda, zərərçəkənlərə yardım göstərməməkdə ittiham edirdilər.
Seçkilərin iyunun 18-dən sonra keçirilməsi üçün isə konstitusiyaya dəyişiklik edilməli idi. Ölkədə yaranmış çətin vəziyyətə baxmayaraq, Prezident Rəcəb Tayyib Ərdoğan mart ayında növbəti prezident və parlament seçkilərinin təxirə salınmayacağını və may ayının 14-də keçiriləcəyini elan etdi. Əvvəldə qeyd etdiyim kimi, 1950-ci ilin məhz bu tarixində Türkiyədə keçirilmiş seçkilərdə CHP-nin 27 illik iqtidarı başa çatıb. Politoloqların və jurnalistlərin fikrincə, 14 mayın seçki günü kimi müəyyən edilməsi də simvolik olaraq həmin siyasi hadisə ilə əlaqədardır.
Onu da qeyd etmək yerinə düşər ki, Türkiyədəki dağıdıcı zəlzələyə ən çox məruz qalmış Qaziantep və Kahramanmaraş vilayətlərinin əhalisi bütün seçkilərdə, əsasən AKP-ni dəstəkləyiblər. AKP və Rəcəb Tayyib Ərdoğan indiyədək keçirilmiş hər bir seçkidə bu vilayətlər üzrə böyük fərqlə qalib olublar. Bu mənada bir çoxları Rəcəb Tayyib Ərdoğanın seçkilərin 14 mayda keçirilməsi ilə bağlı qərar verərkən böyük riskə getdiyini düşündülər. Lakin bu riskə getməklə Rəcəb Tayyib Ərdoğan nə qədər müdrik və təcrübəli siyasətçi olduğunu bir daha təsdiq etdi. Belə ki, dövlətin tarixi sınaqdan keçdiyi bir dövrdə seçkilərin təxirə salınmaması ilk növbədə Ərdoğanın siyasi nüfuzunu daha da yüksəldən mühüm amilə çevrildi. Zaman Rəcəb Tayyib Ərdoğanın seçkiləri təxirə salmamaqla nə qədər doğru və tarixi qərar verdiyini göstərir.
Türkiyədə keçirilən prezident seçkilərində AKP, MHP, Böyük Birlik Partiyasının və Yenidən Rifah Partiyasının təmsil olunduğu «Cümhur» İttifaqı Rəcəb Tayyib Ərdoğanın, CHP, İyi, Deva, Gələcək, Səadət və Demokratik partiyalarının birləşdiyi «Millət» İttifaqı (PKK terror təşkilatı və onun siyasi qanadı olan Xalqların Demokratik Partiyası (HDP) açıq şəkildə müxalifətə dəstək verdiyi üçün «Millət İttifaqı»nı «Yeddili masa» da adlandırırlar) CHP-nin sədri Kamal Kılıçdaroğlunun, Zəfər, Ədalət, Ölkəm və Türkiyə İttifaqı partiyalarının birliyi olan «Ata» İttifaqı Sinan Oğanın namizədliyini irəli sürdü. Məmləkət Partiyası isə qurucusu və sədri olan Məhərrəm İncənin namizədliyini verdi.
Lakin seçkilərə 3 gün qalmış Məmləkət Partiyasının sədri Məhərrəm İncə namizədliyini geri götürdü.

### TÜRKİYƏNİ QLOBAL GÜCƏ ÇEVİRƏN SİYASİ KURS

Prezident və parlament seçkilərində kimin qalib gələcəyi və ya hansı siyasi partiyanın Türkiyə Böyük Millət Məclisində daha çox təmsil olunacağı ilə bağlı müzakirələr isə hələ ötən ildən başlamışdı. Sözsüz ki, Türkiyənin son 20 ildə keçdiyi inkişaf yolu nüfuzlu dövlətə çevrilməsi, öz milli maraqlarını qətiyyətlə təmin edə bilməsi, PKK terror təşkilatının əhəmiyyətli dərəcədə zəiflədilməsi, kürdlərin problemlərinin həlli istiqamətində atılan addımlar, həmçinin İkinci Qarabağ savaşında Azərbaycanın qələbəsi, AKP iqtidarının uğurunu təmin edən amillər kimi özünü göstərirdi.
Türkiyə son 20 il ərzində məhz Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında dünya siyasətində regional oyunçudan qlobal aktora qədər, NATO çərçivəsində ikinci hərbi gücə qədər böyük inkişaf yolu keçmişdir. Bu gün Türkiyə ABŞ-ın hədə və etirazlarını qətiyyətlə dəf edərək, Rusiyadan S-400 hava hücumundan müdafiə sistemlərini alaraq, öz təhlükəsizliyini təmin edən dövlətdir. ABŞ-ın etirazlarına baxmayaraq, Türkiyə Suriyada öz milli təhlükəsizliyini təmin etmək üçün hərbi əməliyyatlar həyata keçirir, Suriya müxalifətinə hərbi yardım göstərir, türkmənlərin təhlükəsizliyini təmin edir, İraqın şimalındakı PKK-nın düşərgələrini darmadağın edərək, terror təşkilatını gücdən salıb. **Türkiyənin Liviya hakimiyyətinə dəstəyi isə Qərbin xarici siyasətinə uyğun olsa da, ABŞ və Fransa kimi dövlətlər bu məsələdə də qısqanclıqlarını gizlətmirlər.**



Eyni zamanda, son illərdə Şərqi Aralıq dənizində baş verənlər bir daha Türkiyənin güclü dövlət olduğunu göstərdi. Yunanıstan, ABŞ və Fransa bütün imkanlarını səfərbər edərək, Türkiyənin Şərqi Aralıq dənizində qaz yataqlarının kəşfi ilə bağlı işlərinin qarşısını almağa cəhd etsələr də, Ankaranı öz yolundan döndərə bilmədilər.
Dünya liderlərinin həll edə bilmədiyi qlobal təhlükəsizlik məsələlərinin tənzimlənməsində Prezident Ərdoğanın xidmətləri misilsizdir. Məsələn, təxminən 4 milyon nəfərə qədər suriyalı qaçqına qucaq açıb, onların bütün təminatını üzərinə götürməklə, həm də Avropanı böyük miqrasiya böhranından xilas etmişdir.
Bütün dünya Prezident Ərdoğanın qlobal liderliyini Rusiya-Ukrayna müharibəsi fonunda gördü. Rusiya-Ukrayna dialoqunun təşkil olunması sahəsində də cənab Ərdoğanın atdığı addımlar «köhnə qitə»də sülh prosesinə ciddi töhfə olmuşdur. Eyni zamanda, Rusiya-Ukrayna müharibəsi kontekstində Yaxın Şərqdə və Afrika ölkələrində yaranmış ciddi buğda qıtlığı böhranının aradan qaldırılmasında Türkiyə liderinin fəaliyyəti həlledici rol oynamışdır.
Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü il martın 16-da şəxsi təşəbbüsü ilə keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə xüsusi olaraq vurğuladı ki, ***«Türkiyə son 20 ildə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə böyük və şərəfli yol keçmiş, dünyada söz sahibi olmuş, güc mərkəzinə çevrilmişdir. Bu gün dünyada Türkiyə ilə hesablaşırlar və ona hörmət edirlər. Türkiyənin hərbi gücünü, müdafiə sənayesi sahəsində böyük uğurlarını indi dünyada hər kəs görür. Bu illər ərzində Türkiyədə davamlı sabitliyin təmin olunması, ölkənin inkişafı bütün türk dünyası üçün önəmli şərtdir. 2022-ci ildə Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilmiş Zirvə görüşündə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi onun türk dünyasının gücləndirilməsində böyük xidmətlərini bir daha sübut edir».***
O da faktdır ki, Türkiyənin yüksəlişi paralel olaraq daim Qərbin bir sıra dairələrinin dərin narahatlığı və qısqanclığı ilə müşahidə olunub. Ona görə son onillikdə Türkiyə dövlətinin konstitusion idarəçilik modelinin dəyişməsindən sonra Türkiyədə baş verən pozitiv dəyişikliklər, dövlətin qlobal rolunun artmasına mane olan ənənəvi hökumət böhranlarının aradan qalxması fonunda Ankaraya qarşı qondarma ittiham və təzyiqlər də çoxalıb. Bir sıra Avropa təşkilatları demokratiya və insan haqları adı altında Türkiyəyə kənar müdaxilələri intensivləşdirib, etnik-milli qrupların, siyasi və dini cərəyanların toqquşdurulması cəhdlərini artırıb. Həmin siyasi dairələrin seçkilərdə Türkiyə müxalifətinə açıq şəkildə dəstək göstərmələri də Türkiyəni öz yolundan döndərmək niyyətindən irəli gəlirdi.
Məlum olduğu kimi, Türkiyə müxalifətinin birləşdiyi «Millət İttifaqı» və ya «Altılı masa» seçkilərdə alib gələcəyi təqdirdə tədricən parlament üsul idarəsinə qayıtmağı, Suriyada və Liviyada hərbi iştirakdan imtina etməyi planlaşdırırdı. O cümlədən, «Altılı masa» bəyan etmişdi ki, qalib gələcəyi təqdirdə Azərbaycanla Ermənistan arasındakı məsələdə neytral mövqedə dayanacaq. «Millət İttifaqı»nın seçki proqramı hətta son illərdə əhəmiyyətli dərəcədə möhkəmlənmiş türk dövlətlərinin birliyini də şübhə altına alırdı. «Millət İttifaqı»nın prezidentliyə namizədi və CHP sədri Kamal Kılıçdaroğlunun «həyatının layihəsi» adlandırdığı nəqliyyat dəhlizi layihəsində Azərbaycanı kənarda saxlaması isə Azərbaycan-Türkiyə münasibətlərinə xəyanət idi.
Ümumiyyətlə, «Altılı masa»da birləşən bütün partiyaların siyasi baxışları bir-birindən kəskin fərqlənir. Onları birləşdirən yeganə məsələ son 20 ildə Türkiyəni qlobal güc mərkəzinə çevirmiş AKP-nin iqtidardan uzaqlaşdırılması, Türkiyədə Avropa və ABŞ-ın maraqlarını təmin edən, yəni sözəbaxan hökumətin qurulması idi ki, bu da xalqa xəyanətdən başqa bir şey deyildi. «Altılı masa» bu yolda hər fürsətdən yararlanmağa çalışırdı. Türkiyə müxalifətinin fevralın 6-da baş vermiş dağıdıcı zəlzələni seçkilərdə qalib gəlmək üçün bir fürsət kimi dəyərləndirməsi də xalqa xəyanət idi. Lakin müxalifətin bu məqsədlə hazırladığı bütün planlar artıq seçkiyə qədər iflasa uğramışdı. Çünki Prezident Rəcəb Tayyib Ərdoğan zəlzələnin baş verdiyi ilk anlardan dövlətin bütün resurslarını səfərbər edərək, təbii fəlakətin ağır nəticələrinin aradan qaldırılması prosesinə başladı. Zəlzələ bölgələrinə çoxsaylı səfərlər edərək, insanlara hərtərəfli dəstəyin göstərilməsi kimi olduqca mürəkkəb prosesin uğurlu təminatı üçün bütün mümkün vasitə və mexanizmləri işlək vəziyyətə gətirdi. **Prezident Ərdoğan zəlzələdən böyük ziyan çəkmiş yaşayış məntəqələrində insanlar qarşısında çıxış edərkən inamla bildirirdi ki, cəmisi 1 il ərzində 319 min ev tikilib qanuni sahiblərinə təhvil veriləcək, bütövlükdə isə 650 min ev tikiləcək. Mart və aprel aylarında bu istiqamətdə həyata keçirilən işlər Türkiyə hökumətinin zəlzələnin nəticəsinin sürətlə aradan qaldırılmasındakı gücü iradəsindən xəbər verdi ki, bu da müxalifətin bütün çirkin planlarını darmadağın etdi.**

### SON 20 İLDƏ TÜRKİYƏNİN İXRACI 2 TRİLYON 793 MİLYARD ABŞ DOLLARI TƏŞKİL ETMİŞDİR

Seçkilərdə kimin qalib gələcəyi ilə bağlı müzakirələrdə ən çox qabardılan məsələlərdən biri də Türkiyənin iqtisadi vəziyyəti ilə bağlı idi. Aydındır ki, ölkənin iqtisadi durumu, adambaşına düşən milli gəlirin səviyyəsi, ixracatın illik həcmi, ölkəyə cəlb edilən investisiyalar və digər göstəricilər də iqtisadi stabilliyə təsir etməklə seçici davranışlarında mühüm rol oynayır. Son illərdə ölkədə iqtisadi sahədə özünü göstərən çətinliklər, inflyasiyanın sürətlə yüksəlməsi, türk lirəsinin dollar qarşısında dəyər itirməsi Türkiyə cəmiyyətində müəyyən narahatlıqlara yol açmışdır. Bu arqumentlərdən çıxış edənlər seçkilərdə hakimiyyətin vəziyyətinin heç də asan olmayacağını proqnozlaşdırdılar.

(davamı 4-cü səhifədə)

# Rəcəb Tayyib Ərdoğan Budapeştdə səfərdə olub

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə Macarıstanın milli bayramı və yüngül atletika üzrə dünya çempionatı ilə bağlı tədbirlərdə iştirak etmək üçün Budapeştdə səfərdə olub.
Səfər zamanı dövlət başçısını xarici işlər naziri Hakan Fidan, enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar, gənclər və idman naziri Osman Aşkın Bak, sənaye və texnologiya naziri Mehmet Fatih Kacır, ticarət naziri Ömər Bolat, Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəisi Fəxrəddin Altun, müşavir Akif Çağatay Kılıç və başqaları müşayiət ediblər. Macarıstan tərəfi ilə görüşlər zamanı bütün səviyyələrdə ikitərəfli münasibətlərin müzakirəsi, regional və qlobal hadisələrlə bağlı fikir mübadiləsi aparılıb.
Bundan əlavə, Prezident Ərdoğan bayram və tədbirlərdə iştirak edəcək həmkarları ilə ikitərəfli görüşlər keçirib.

***

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Budapeştdə Macarıstanın Baş naziri Viktor Orbanla görüşüb.
**"Danışıqlarda Türkiyə-Macarıstan münasibətləri ilə yanaşı, Türkiyənin Avropa İttifaqına tamhüquqlu üzvlüyü məsələsi, regional və beynəlxalq problemlər də nəzərdən keçirilib"**, - deyə məlumatda bildirilir.
Görüşün digər detalları açıqlanmayıb.

***

Macarıstan vətəndaşları Budapeştdə səfərdə olan Prezident Rəcəb Tayyib Ərdoğana sevgi nümayiş etdirib.
Prezident Rəcəb Tayyib Ərdoğan Macarıstan Dövlətinin Quruluşu Günü münasibəti ilə səfərdə olduğu Budapeştdə ona sevgi göstərən Macarıstan vətəndaşlarını salamlayıb.

**Mənbə: "Anadolu" Agentliyi**



Amma Türkiyədə AKP hakimiyyətinin 20 illik hakimiyyəti böyük iqtisadi yüksəlişlə də əlamətdardır. Son 20 ildə Türkiyədə baş verən iqtisadi artım bu ölkənin əvvəlki 80 illik tarixinin iqtisadi göstəricilərindən qat-qat yüksəkdir. İqtisadi göstəricilərə nəzər salaq. Məsələn, 1991-ci ildən 2002-ci ildə qədər Türkiyədə qurulmuş 11 hökumətin iqtidarı dövründə istehlakçı inflyasiyası 866,5 faiz, (illik ortalama 77,77 faiz), toplam inflyasiya isə 851 faiz (illik ortalama 77,36 faiz) təşkil etmişdi. AKP-nin 20 illik iqtidarı dönəmində istehlakçı inflyasiyası 284,98 faiz (illik ortalama 14,25 faiz), toplam inflyasiya 374,78 faiz (illik ortalama 18,73 faiz) olmuşdur. 2020-ci ildə pandemiyayadək 17 illik göstəricilərdə istehlakçı inflyasiyası 170 faiz (illik ortalama 10 faiz), toplam inflyasiya 172 faiz (illik ortalama 10,1 faiz) artmışdır.

2018-ci il seçkilərindən sonrakı 4 ildə ölkədə istehlakçı inflyasiyası 126,79 faiz (illik ortalama 36,7 faiz), toplam inflyasiya 210 faiz (illik ortalama 52,53 faiz) təşkil etmişdir. Xüsusilə, 2018-ci il seçkilərinədək ölkədə inflyasiya təkrəqəmli olduğu halda, son 4 ildə ortalama inflyasiya 4-5 dəfə yüksəlmişdir. Bu rəqəmlərin sürətlə yüksəlməsi əsasə qlobal miqyasda gedən proseslər və Qərbin Türkiyəyə qarşı tədbirləri nəticəsində baş vermişdir. Bununla belə, ötən 5 ildə orta inflyasiya həddi AKP-dən öncəki 11 hökumətin orta inflyasiyasının yarı həddini keçməmişdir.

Türkiyədə 2002-ci ildə adambaşına düşən milli gəlir 3688 ABŞ dolları ikən, hazırda 10 min 655 dollar təşkil edir. Türkiyədə hər il, hətta pandemiya dövrü də daxil olmaqla iqtisadi böyümə qeydə alınıb. İllik ortalama iqtisadi böyümə təxminən 5,33 faiz olmuşdur.

Türkiyə iqtisadiyyatında önəmli bir göstərici də ixracatın həcmi ilə bağlıdır. 2002-ci ildə Türkiyənin ixracatının həcmi 36 milyard 59 milyon dollar olmuşdur. Bu rəqəm AKP iqtidarının ilk 10-cu ilinə qədər hər il yüksəlmiş və ixrac həcmi 2012-ci ildə 3 dəfədən çox artaraq 113 milyard 883 milyon dollar təşkil etmişdir. 2022-ci ildə ixracatın həcmi 235 milyard 236 milyon dollara çatmışdır. Bu, 2002-ci ildəkindən 6,52 dəfə, 2012-ci ildəkindən 2,06 dəfə çoxdur. İxracatda istehsalın payı 94 faiz qeydə alınmışdır.

Müqayisə üçün qeyd edək ki, Türkiyənin 2003-cü ilədək 80 illik cümhuriyyət dönəmində toplam ixracatı 395 milyard 22 milyon dollar olduğu halda, son 20 ildə 2 trilyon 793 milyard dollara çatmışdır. AKP-yədək Türkiyənin illik ortalama ixracı 4,9 milyard dollar olduğu halda, son 20 ilin ortalaması illik 139 milyard 650 milyon dollardır.

Yalnız son 2 ildə ixracatın həcmi 460 milyard dollar olmuşdur ki, bu da rəqəmlə 2003-cü ilədək 80 ildə olan ixracarın həcmindən 16,4 faiz çoxdur.

Türkiyənin iqtisadiyyatının böyüməsi sadəcə ixrac rəqəmlərini artırmayıb, idxal rəqəmləri də sürətlə yüksəlib və xarici ticarət böyüməyə davam edib, 2022-ci ildə 107 milyard dollara çatmışdır. 2022-ci ildə idxalın həcmi 342 milyard dollara, xarici ticarətin həcmi isə ümumilikdə yarım trilyon dolları keçərək, 577 milyard dollara yüksəlmişdir.

Bütün bunlara baxmayaraq, bir çoxları xüsusən 2022-ci ildə özünü göstərən iqtisadi çətinliklərin, inflyasiyanın yüksək olmasının, əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsinin, işsizliyin artmasının seçkilərdə AKP iqtidarının əleyhinə yönələcəyini proqnozlaşdırırdılar.

Bununla belə, Türkiyədə güclü və dayanıqlı sosial müdafiə sistemi formalaşmışdır ki, bu da iqtisadi çətinliklər fonunda AKP hakimiyyətinin nüfuzuna təsir edən mühüm faktordur. Belə ki, Türkiyədə ölkə vətəndaşları üçün ödənişsiz səhiyyə xidmətləri sisteminin formalaşması, ehtiyacı olanlar üçün dərman vasitələrinə əlçatanlığın təmin edilməsi, sosial müdafiə sahəsində müəyyən sosial layihələrin tətbiqi, yaşlı və tənha insanlarla bağlı xüsusi dəstək proqramlarının həyata keçirilməsi, mükəmməl infrastrukturun yaradılması sadə vətəndaşların hökumətə rəğbətini formalaşdıran amillər kimi özünü göstərir.

### TÜRKİYƏ XALQI MİLLİ MARAQLARI QƏTİYYƏTLƏ TƏMİN EDƏN SİYASİ KURSA SƏS VERDİ

Türkiyədə prezident və parlament seçkilərinin birinci turu may ayının 14-də keçirildi. Yekun nəticələrə əsasən, «Cümhur» İttifaqının namizədi, Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan 49,51 faiz, «Millət İttifaqı»nın namizədi, CHP-nin sədri Kamal Kılıçdaroğlu 44,85 faiz, «ATA» İttifaqının namizədi Sinan Oğan 5,17 faiz səs topladı. Seçkidən əvvəl namizədliyini geri götürən Məmləkət Partiyasının sədri Məhərrəm İncəyə isə seçicilərin 0,44 faizi səs verdi. Bu turda rezidentliyə namizədlərdən heç biri lazım olan 50+1 səsi toplaya bilmədi. Heç bir namizəd prezident seçilməsə də, Rəcəb Tayyib Ərdoğanla Kamal Kılıçdaroğlu arasında səs fərqi 2 milyon 538 min 671 idi.

Millət vəkili uğrunda mübarizədə isə «Cümhur» İttifaqı yenə də böyük üstünlüklə qalib gəldi. Seçkinin nəticələrinə əsasən, Türkiyə Böyük Millət Məclisinin 600 deputat yerindən 316-sını «Cümhur» İttifaqı qazandı. Bunun 266-sını AKP, 50-sini isə MHP üzvləri əldə etdilər. Bununla da parlamentdə üstünlük «Cümhur» İttifaqınındır.

May ayının 28-də prezident seçkilərinin ikinci turu keçirildi. Bu turda 64,1 milyon seçicinin 84,15 faizi iştirak etdi ki, olduqca yüksək göstəricidir və Türkiyə xalqının ölkənin siyasi taleyinə həssas münasibətindən xəbər verdi.

Seçkilərin nəticəsinə əsasən, Türkiyə seçicilərinin 52,18 faizi öz səsini ölkə Prezidenti, «Cümhur» İttifaqının namizədi, Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğana verdi. «Millət» İttifaqının namizədi, CHP-nin sədri Kamal Kılıçdaroğlu isə səslərin 47,82 faizini aldı. Bu turda Rəcəb Tayyib Ərdoğan Kamal Kılıçdaroğludan 2 milyon 330 min 140 çox səs topladı.

Elə həmin gün Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğana zəng edərək, seçkilərdə əldə etdiyi qələbə münasibətilə təbrik edib. Prezident İlham Əliyev bu qələbəni Türkiyə xalqının Rəcəb Tayyib Ərdoğanın həyata keçirdiyi siyasətə göstərdiyi etimad kimi dəyərləndirərək, əmin olduğunu bildirib ki, Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə növbəti illərdə də Türkiyənin hərtərəfli inkişafı davam etdiriləcək. Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğana Türkiyə xalqının firavanlığı və ölkənin tərəqqisi naminə fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Həmin gün Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğana təbrik məktubu da ünvanlayıb. Məktubda deyilir: «Türkiyə Respublikasının Prezidenti vəzifəsinə keçirilən seçkilərdə yenidən qazandığınız qələbə münasibətilə Sizə öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram. Azərbaycan xalqı da bu seçkiləri böyük diqqət və həyəcanla izləyirdi.

Milli iradənin təntənəsi olan səsvermənin nəticələri ölkənizin hərtərəfli inkişafı yolunda qətiyyətlə həyata keçirdiyiniz genişmiqyaslı siyasətə və əvəzsiz xidmətlərinizə verilən ən ali qiymətdir. Çağdaş dövrümüzün səhifələrinə qızıl hərflərlə həkk olunmuş fəaliyyətiniz Vətənə, xalqa, Türk elinə hədsiz sevginin, bağlılığın və sədaqətin bariz ifadəsidir.

Son iyirmi il ərzində qardaş Türkiyə Respublikası Sizin liderliyiniz sayəsində böyük və şərəfli inkişaf yolu keçərək, beynəlxalq aləmdə proseslərə həlledici təsir göstərən güc mərkəzinə çevrilmiş, söz sahibi olmuş, siyasi, iqtisadi, sənaye, hərbi, yeni texnologiyalar və digər sahələrdə mühüm nailiyyətlər əldə etmişdir. Sizin tarixi missiyanızın əsas qayəsini təşkil edən qüdrətli və nüfuzlu Türkiyə Respublikasının uğurları qardaş ölkə olaraq bizi də olduqca qürurlandırır».

Prezident İlham Əliyevin həm zəngi, həm məktubu Azərbaycan-Türkiyə qardaşlığının, eyni zamanda iki dövlətin rəhbərləri arasındakı möhkəm dostluq münasibətlərinin təcəssümü idi. Bu zəng və məktub həm də bütövlükdə Azərbaycan ictimaiyyətinin Rəcəb Tayyib Ərdoğanın qələbəsi ilə bağlı sevincinin ifadəsi idi.

Seçkilərdən bir neçə gün sonra Türkiyədə yeni kabinet formalaşdırılmışdır. Onların siyahısından göründüyü kimi, Türkiyə hökuməti bu dəfə də sağlam, dövlətini və millətini sevən insanlardan ibarətdir. Xüsusilə qeyd edilməlidir ki, Türkiyənin milli müdafiə naziri Yaşar Gülər və xarici işlər naziri Hakan Fidan Azərbaycana dost və yaxın insanlardır. Bu təyinata qədər Yaşar Gülər Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, Hakan Fidan isə Milli İstihbarat Təşkilatının sədri vəzifəsində çalışırdı. Bu vəzifələrdə çalışdıqları dövrdə onların hər ikisi Azərbaycana səfərlər ediblər. Xüsusən Vətən müharibəsi günlərində onların Azərbaycana səfərləri yaddaşlardan silinməyib.

Azərbaycan xalqının yaxından tanıdığı və dərin ehtiram bəslədiyi keçmiş xarici işlər naziri Mövlud Çavuşoğlu və keçmiş milli müdafiə naziri Hulusi Akar isə bundan sonrakı fəaliyyətlərini Türkiyə Böyük Millət Məclisində davam etdirirlər. Onlardan Hulusi Akar hazırda Türkiyə Böyük Millət Məclisinin Milli Müdafiə Komissiyasının sədridir.

### SEÇKİLƏRİN NƏTİCƏLƏRİ TÜRKİYƏNİN UĞURLARININ DAVAMLI OLMASINI TƏMİN ETDİ

2023-cü ilin may seçkilərinin yekunları 21 ildir hakimiyyətdə olmasına baxmayaraq, xalqın böyük əksəriyyətinin AKP və onun sədri Rəcəb Tayyib Ərdoğana etimadının təcəssümü oldu. Bəziləri bu seçkilərdə onun siyasi erasının başa çatacağını düşünürdü. Ancaq seçkilər sübut etdi ki, o, bundan sonra da öz xalqının siyasi lideri olaraq qalacaq və Türkiyəni güclü dövlətə çevirən siyasi kurs davam etdiriləcək.

Eyni zamanda, Türkiyə xalqı Cümhuriyyətin yaradılmasının 100-cü ilinə təsadüf edən bu seçkilərdə dövlətçiliyə sadiqliklə bağlı sınaqdan da uğurla çıxdı. Belə ki, xalq dövləti zəiflədəcək, onu öz yolundan döndərəcək partiyaların iqtidara gəlməsinə imkan vermədi. Bu baxımdan bu seçki həm də xarici dairələrin Türkiyə ilə bağlı planlarının növbəti dəfə darmadağın edilməsi, o cümlədən CHP sədri Kamal Kılıçdaroğlunun Azərbaycandan kənar keçən nəqliyyat dəhlizi arzusunun fiaskoya uğraması ilə nəticələndi. 2016-cı ildə olduğu kimi, bu dəfə də Türkiyə dövlətinin qüdrətləndirməsinin qarşısını almağa hesablanmış cəhdlər iflasa uğradıldı.

2023-cü ilin may ayında keçirilən seçkilərin nəticələri ilk növbəbə Türkiyənin bir dövlət olaraq uğurlarının davamlı olmasını təmin etdi. Seçkilərin nəticələri isə təkcə Türkiyə dövlətinin milli maraqları çərçivəsi ilə yekunlaşmadı, milli sərhədləri aşaraq qlobal məna və məzmun kəsb etdi.

Bu seçkilərin nəticələri Azərbaycanda da böyük sevinclə qarşılandı. Çünki güclü Türkiyə həm də güclü Azərbaycan deməkdir. Prezident İlham Əliyevin Rəcəb Tayyib Ərdoğana məktubunda deyildiyi kimi, Azərbaycan-Türkiyə birliyi və müttəfiqliyi «Bir millət iki dövlət» və «Bir yumruq» fəlsəfələrinin ruhuna uyğun olaraq bundan sonra da yüksələn xətt üzrə davam edəcək və daha da möhkəmlənəcək.

**Akademik Ziyad SƏMƏDZADƏ**

# Macarıstanın Aİ-yə sədrlik edəcəyi dönəmdə ciddi addımlar ata bilərik



"Macarıstanın baş naziri Viktor Orban 2024-cü ilin ikinci yarısında Avropa İttifaqına sədrlik edəcək, bu prosesdə ciddi addımlar ata bilərik". Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarını cavablayarkən deyib.

**"V.Orban Türk Cümhuriyyətləri ilə bağlı müşahidəçi üzv kimi hansı mövqedə olduğumuzu bilir. Macarıstan tarixən Türkiyəyə yaxın olan bir ölkədir və bu yaxınlığını ölkəmizə olan münasibəti ilə sübut edir"**, - deyə o, vurğulayıb.

Qeyd edək ki, 20 avqust tarixində Rəcəb Tayyib Ərdoğan Macarıstanın milli bayramı - Müqəddəs Stefan Günü ilə bağlı iştirak etmək üçün Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə Budapeştə bir günlük səfər edib.

Xatırladaq ki, daha öncə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İsveçin NATO-ya üzvlük müraciətinin təsdiqlənməsi üçün Türkiyənin də Avropa İttifaqına üzv olmasının lazım olduğunu bildirmişdi.

# Türkiyə həm regional, həm də qlobal gücə çevrilib

Trend-in TurkicWorld-ə istinadən məlumatına görə, bu barədə ABŞ-nin "The Hill" qəzetində dərc edilən məqalədə qeyd olunub.

***"Türkiyənin son illər xarici siyasətdə atdığı addımlar dünyanın gündəmindən düşmür. Türkiyə Yaxın Şərqdə açar rolu oynayır. ABŞ bölgədəki hərbi və siyasi gücünü saxlamaq istəyirsə, Türkiyə ilə münasibətləri yaxşı tendensiya ilə davam etdirməlidir.Prezident Rəcəb Tayyib Ərdoğanın uğurlu xarici siyasəti sayəsində zaman-zaman Qərb dövlətləri ilə münasibətlərdə yaranan böhranlar aradan qaldırılıb"***, - deyə qəzet yazır. Məqalədə vurğulanıb ki, ABŞ-nin siyasi və hərbi gücünü qorumaq üçün Türkiyəyə ehtiyacı var. Türkiyə həm regional, həm də qlobal aktora çevrilib.


Just In...
Court reverses injunction on Alabama transgender health care ban
STATE WATCH - 3H 54M AGO
Ecuadorians vote to end oil drilling in parts of the Amazon
NEWS - 5H 34M AGO
Trump plans to turn himself in on Thursday
NEWS - 6H 17M AGO
Many children likely among the 850 people still missing in Maui wildfires, governor says
STATE WATCH - 6H 31M AGO
Biden tours 'overwhelming' devastation in Maui: 'The country grieves with you'
ADMINISTRATION - 6H 57M AGO

OPINION > INTERNATIONAL
THE VIEWS EXPRESSED BY CONTRIBUTORS ARE THEIR OWN AND NOT THE VIEW OF THE HILL
Turkey is the real key to American influence in the Middle East
BY STEWART LATWIN, OPINION CONTRIBUTOR - 08/21/23 4:30 PM ET
SHARE TWEET
Turkish President and People's Alliance's presidential candidate Recep Tayyip Erdogan makes a speech at the presidential palace, in Ankara, Turkey, Sunday, May 28, 2023. (AP Photo/Ali Unal)

Most Popular
3 How to watch the first Republican presidential primary debate
4 Trump attorney Jenna Ellis asks why MAGA PAC isn't paying for h...
5 The disqualification of Donald Trump and other legal urban...
6 Trump rebukes Fox News by skipping GOP

# Biznes forumda hər iki ölkə üçün maraq kəsb edən mühüm layihələrdən danışılıb

Bakıda Azərbaycan-Özbəkistan biznes forumu keçirilib. Tədbirdə hər iki tərəfdən dövlət rəsmiləri ilə yanaşı, kənd təsərrüfatı, qida, tekstil, əczaçılıq, tikinti, turizm, logistika və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak ediblər.

Biznes forumda ölkələrimiz arasında ticarət, investisiya, sənaye, kənd təsərrüfatı sahələrində əməkdaşlığın dərinləşdirilməsi müzakirə olunub, bir sıra sənədlər imzalanıb. Biznes forumda iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan və Özbəkistan dövlət başçılarının siyasi iradəsi və birgə səylərinin ölkələrimiz arasında münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə çatdırdığını vurğulayıb.

Qeyd olunub ki, imzalanmış 160-dan çox sənəd, o cümlədən Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə möhkəm ikitərəfli hüquqi baza yaradır. Özbəkistanla əməkdaşlıq çoxvektorludur və iqtisadiyyatın müxtəlif sahələrini əhatə edir, birgə layihələr, qarşılıqlı investisiya qoyuluşları həyata keçirilir. Azərbaycan-Özbəkistan İnvestisiya Fondu isə iqtisadi əlaqələrin daha da möhkəmlənməsinə, qarşılıqlı investisiyaların stimullaşdırılmasına, ölkələrimizin regionları və işgüzar dairələri arasında əlaqələrin inkişafına mühüm töhfə verəcək. Qarşılıqlı münasibətlərin sürətli inkişafı ticarətin dinamikasına da müsbət təsir göstərir. Ticarət dövriyyəsinin artırılması üçün geniş potensial var və bu sahədə təşəbbüslərin intensivləşməsi əhəmiyyət kəsb edir.

Tədbirdə ölkələrimizin biznes qurumlarının tərəfdaşlığı çərçivəsində gerçəkləşdirilən investisiya layihələri, Azərbaycanda birgə avtomobil istehsalı və tekstil müəssisələrinin, pambıq klasterinin yaradılması sahəsində görülən işlər barədə məlumat verilib. Bildirilib ki, enerji sahəsində səmərəli əməkdaşlıq həyata keçirilir. Perspektivli sahələrdən biri də nəqliyyatdır. Bu baxımdan, ölkələrimizin Orta Dəhliz çərçivəsində tərəfdaşlığı böyük potensiala malikdir.

Biznes forumda Azərbaycanın əlverişli investisiya mühiti, həyata keçirilən iqtisadi islahatlar, sənaye zonaları, Ələt Azad İqtisadi Zonası, işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələr, sərmayədarlar üçün yaradılan imkanlar barədə məlumat verilib, Özbəkistan tərəfindən Füzulidə 960 şagird yerlik məktəb binasının tikildiyi vurğulanıb, azad edilmiş ərazilərimizin yenidən qurulmasında iştiraka görə qardaş ölkəyə minnətdarlıq ifadə olunub. Özbəkistan şirkətləri ilə sənaye, ticarət, energetika, nəqliyyat-logistika, kənd təsərrüfatı, turizm və digər istiqamətlər üzrə tərəfdaşlığın genişləndirilməsi üçün imkanlar diqqətə çatdırılıb.

Özbəkistanın investisiyalar, sənaye və ticarət naziri Laziz Kudratov qeyd edib ki, dövlət başçılarımızın strateji yanaşmaları ortaq tarixi köklərə və dəyərlərə malik olan ölkələrimiz arasında əməkdaşlığın bütün istiqamətlər üzrə inkişaf etməsinə mühüm töhfə verir. Biznes forum çərçivəsində Azərbaycan və Özbəkistan qurumları arasında metallurgiya, akkreditasiya, energetika və əczaçılıq sahələri üzrə əməkdaşlığı nəzərdə tutan sənədlər imzalanıb.

Tədbir B2B formatında görüşlərlə davam etdirilib.

# Yanvar-iyun aylarında orta illik inflyasiya 12,7% olub



Bu ilin əvvəlinə nisbətən inflyasiya bir qədər zəifləsə də, ikirəqəmli olaraq qalmaqda davam edib, həm daxili, həm də xarici amillər inflyasiyaya təsir edib.

Trend xəbər verir ki, bu, Hesablama Palatasının "Dövlət büdcəsinin icrası barədə yarımillik məlumata xülasəsi"ndə yer alıb.

Qeyd edilib ki, 2023-cü ilin yanvar-iyun aylarında orta illik inflyasiya 12,7% olub, ilin əvvəli ilə müqayisədə sürəti bir qədər zəifləyib (2022-ci ildə orta illik inflyasiya 13,9%). İstehlak səbətinə daxil olan bütün alt qruplar üzrə qiymət artımı ikirəqəmli qalmaqda davam etmiş, baxılan dövrdə də ən yüksək bahalaşma ərzaq məhsulları üzrə qeydə alınıb (15,1%).İyun ayında əvvəlki aya nəzərən 0.9%-lik deflyasiya müşahidə edilib.

Hesabat dövründə orta illik inflyasiyanın ikirəqəmli qalması həm xarici, həm də daxili amillər ilə izah edilir. Belə ki, yanvar-iyun aylarında idxal olunan mallar orta illik qiymətləndirmədə 18,9% bahalaşıb, AMB tərəfindən sterilizasiya əməliyyatlarının tətbiqi fonunda manatla pul bazası iyun ayının sonunda illik ifadədə 17,6% artıb.

Baxılan dövr ərzində istehsalçı qiymət indekslərində də artım izlənib. Manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi idxal inflyasiyasını bir qədər neytrallaşdırmış və inflyativ proseslərə azaldıcı təsir edib.

# "Equinor" Azərbaycanda $1 milyard dəyərində aktivlərin satışını araşdırır

Norveçin "Equinor" neft şirkəti Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" (AÇG) neft-qaz yataqları blokunun işlənməsi layihəsində 7.27% payının satışını araşdırır.

Alıcıların bu aktivlərə marağını qiymətləndirmək üçün hazırda Norveç şirkəti "Jefferies Financial Group Inc"i. ilə iş aparır.

Bildirilib ki, maraqlı tərəflər arasında ABŞ-ın "ExxonMobil" şirkəti, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Yaponiyanın "Inpex" şirkəti var. Mövcud razılaşmanın şərtlərinə görə, "Equnior" öz payının satışı ilə bağlı ilk olaraq SOCAR-a müraciət etməlidir.

"Equinor" bu aktivlər üçün təkliflərin yaxın həftələrdə təqdim olunmasını gözləyir və bu sövdələşmə təxminən 1 milyard ABŞ dolları dəyərində qiymətləndirilir.

Qeyd edək ki, "Equinor" Xəzər dənizində digər kəşfiyyat sahələrində, eləcə də Bakı-Tbilisi-Ceyhan neft ixrac boru kəmərində 8.71% paya da malikdir.



# Xəzinə 82,5 milyon manat da cəlb edib

22 avqust 2023-cü il tarixində Bakı Fond Birjasında Azərbaycan Respublikası Maliyyə Nazirliyinin AZ0201040109 ISINli, 55 mln. manat həcmində, 1092 (qalıq 973) gün olan tədavül müddətli Kuponlu, Dövlət Ortamüddətli İstiqrazlarının (DOİ) yerləşdirilməsi üzrə hərrac keçirilmişdir.

Birjanın yaydığı məlumata görə, hərrac zamanı 31 investor tərəfindən qiymət intervalı 91.1322 (11.502%) manat və 99.9229 (7.901%) manat olan 67 sifariş təqdim edilmişdir.

Maliyyə Nazirliyinin qərarına əsasən istiqrazların kəsmə qiyməti 98.4393 (8.48%) manat, orta ölçülmüş qiyməti 98.9624 (8.2746%) manat müəyyən edilmişdir.

Sifarişlərin nominal qiymətlə ümumi məbləği 216,233,700 manat, yerləşdirilmiş həcmi isə 82,500,000 manat təşkil edilmişdir. İstiqrazların ödəmə tarixi 21 aprel 2026-cı ildir.

Hərrac iştirakçıları 23 avqust 2023-cü il tarixinədək istiqrazların alışı üzrə öhdəliklərini icra etməlidirlər.

**Qeyd:** Hərrac zamanı dövlət istiqrazlarına tələb təklifi üstələyəcəyi və qiymət emitenti qane edəcəyi halda emitent tərəfindən təklif edilən istiqrazların həcmi 50 faizədək artırıla bilər.

# "InvestAZ"-dan dünya maliyyə bazarları ilə bağlı həftəlik analiz

"InvestAZ İnvestisiya şirkəti"-nin analitikləri bu həftə üzrə dünya maliyyə bazarlarında son vəziyyət və qısa müddət ərzində gözlənilənlərlə bağlı məlumat verib.

Ötən həftə İngiltərədə, eləcə də Avrozonada açıqlanan inflyasiya və ÜDM göstəriciləri, həmçinin FED-in son toplantısının dərc olunan protokolları fonunda dollar major valyutalar və qızıl qarşısında kəskin bahalaşıb.

Bu həftə isə bütün diqqətlər "Jackson Hole" Simpoziumuna yönələcək. Həmçinin Amerika, Avrozona, Almaniya və İngiltərədə açıqlanacaq sənaye və xidmət sektorlarında Biznes Aktivliyi İndeksi göstəriciləri də investorlar tərəfindən yaxından izləniləcək.

İnvestorlar iqtisadi mənzərə və faiz dərəcələrinin gələcək tendensiyasına aydınlıq gətirmək üçün FED sədri Jerom Pavelin "Jackson Hole" Simpoziumundakı çıxışına köklənəcəklər.




Pavelin cümə günündə nəzərdə tutulmuş çıxışı mərkəzi bankın keçən həftə açıqladığı iyul iclas protokollarını izləyəcək. Protokollar göstərdi ki, əksər FED rəsmiləri inflyasiya üçün yuxarı riskləri görməyə davam edir və bu, faiz artımlarının davam edəcəyini istisna etmir.

İnvestorlar FED sədrinin inflyasiyanın azaldılması üçün sərt monetar siyasətin davam etdirilməsinə ehtiyac olacağına inanıb-inanmadığına və ya faiz dərəcələrini sabit saxlamaq üçün kifayət qədər irəliləyişin olub-olmadığına diqqət yetirəcəklər. Bazar izləyiciləri həmçinin Fed-in 2024-cü ildə faiz endirimi ehtimallarına dair hər hansı ipucu axtaracaqlar.

Analitiklər FED-in sentyabr iclasında faiz dərəcələrini indiki səviyyədə saxlayacağını 89% çoxluqla ehtimal edirlər.

İnvestorlar həmçinin yeni və ikinci əl ev satışları ilə bağlı göstəricilərlə mənzil sektorunun vəziyyəti haqqında məlumatlandırılacaqlar. Yüksək ipoteka faizləri mövcud ev satışlarını təzyiq altında saxlasa da, sabit qiymətlər və bazarda mənzil çatışmazlığı səbəbindən yeni ev satışlarının artması tikinti sektorunda yaxşılaşmaya siqnal ola bilər.

Bundan əlavə, cari həftə ərzində qismən toparlanması gözlənilən regional istehsal fəaliyyətləri (Miçiqan ştatından) ilə bağlı hesabatlar, həmçinin işsizlik müavinatı üçün müraciətlərin sayı ilə bağlı həftəlik məlumatlar da açıqlanacaqdır.

# "GESCO" ASC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HESABATI

| | Qeyd | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Əmlak və avadanlıqlar (Əsas vəsaitlər) | 3 | 1 874 983,08 | 2 620 867,90 |
| Qeyri-maddi aktivlər | 3 | 11 160,26 | 12 400,29 |
| Verilmiş borclar | | | |
| İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | | |
| Təxirə salınmış vergi aktivləri | | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | **1 886 143,34** | **2 633 268,19** |
| | | | |
| ***Qısamüddətli aktivlər*** | | | |
| Ehtiyatlar | 3 | 15 858,80 | 5 602,80 |
| Qısamüddətli debitor borcları | 11 | 944 205,02 | 1 119 614,56 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 2 096 938,28 | 2 307 719,42 |
| Digər aktivlər | 14 | 22835180,33 | 4 636 567,98 |
| Sair qısamüddətli aktivlər | | | |
| Gələcək dövrün xərcləri | | | 5 524,22 |
| Sair qısamüddətli Maliyyə aktivləri | | | |
| **Cəmi qısamüddətli aktivlər** | | **25892182,43** | **8 075 028,98** |
| **CƏMİ AKTİVLƏR** | | **27778325,77** | **10708297,17** |

| | | | |
|---|---|---|---|
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| Nizamnamə kapitalı | 11 | 4 000,00 | 4 000,00 |
| Kapital ehtiyatları | | | |
| Hesabat dövrünün bölüşdürülməmiş xalis mənfəəti /zərəri | | | |
| Əvvəlki illərin bölüşdürülməmiş xalis mənfəəti /zərəri | | | |
| **CƏMİ KAPİTAL** | | **4 000,00** | **4 000,00** |
| **Öhdəliklər** | | | |
| Uzunmüddətli öhdəliklər | 18 | 25673299,99 | 8 653 299,98 |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Gələcək dövrün gəlirləri | | | |
| Təxirə salınmış vergi öhdəlikləri | 18 | 114 101,64 | 100 174,84 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **25787401,63** | **8 753 474,82** |
| ***Qısamüddətli öhdəliklər*** | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Qısamüddətli borclar (alınmış avanslar) | | 1 137 150,00 | 656 701,70 |
| Qısamüdətli kreditor borcları | 17 | 262 695,82 | 85 302,48 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 16 | 587 078,32 | 1 208 818,17 |
| Sair qısamüdətli öhdəliklər | | | |
| **Cəmi qısa müddətli öhdəliklər** | | **1 986 924,14** | **1 950 822,35** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **27774325,77** | **10704297,17** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **27778325,77** | **10708297,17** |

| | Qeyd | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 19 | 25 470 281,86 | 23 447 650,56 |
| Satışın maya dəyəri | 22 | - 20873 351,83 | - 19 512 649,86 |
| Ümumi mənfəət (zərər) | | 4 596 930,03 | 3 935 000,70 |
| Daşınmaz əmlakın icarəsindən gəlirləri | | | |
| Kommersiya xərcləri | | | |
| İnzibati xərclər | 22 | -329 661,99 | - 167 611,74 |
| Sair əməliyyat xərcləri | | | |
| Əməliyyat mənfəəti (zərəri) | | 4 267 268,04 | 3 767 388,96 |
| Maliyyə gəlirləri | | | |
| Maliyyə xərcləri | | | |
| Fövqəladə gəlirlər | | | |
| Fövqəladə xərclər | | | |
| Vergidən azad olan gəlirlər üzrə xərclər | | | |
| Vergidən azad olan gəlirlər | | | |
| Gəlirdən çıxılan vergilər və yığımlar | 22 | -22 479,25 | -4 220,82 |
| Məzənnə fərqi | | | |
| Vergitutmadan əvvəl mənfəət (zərər) | 24 | 4 244 788,79 | 3 763 168,14 |
| Keçmiş illərin zərərinə silinir | | - | - |
| Mənfəət üzrə azadolmalar və güzəştlər | | -457 445,08 | - |
| Vergidən azad olan gəlirlər | | - | - |
| Vergiyə cəlb olunan mənfəət | 24 | 3 787 343,71 | 3 763 168,14 |
| Mənfəət vergisi xərci | 25 | -823 401,14 | -786 155,98 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 26 | 3 421 387,65 | 2 977 012,17 |
| Mənfəətdə iştirak payı: | | | |
| Səhmdarların payı | 26 | 37 873,44 | 37 631,68 |
| Səhmdarların payına düşən bir səhmin mənfəəti: | | | |
| Bir səhmin əsas mənfəəti | 26 | 34 213,88 | 29 770,12 |

| | Qeyd | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **31 dekabr 2020-ci il tarixə qalıq** | | **4000,00** | | 3469219,85 | **3473219,85** |
| 2021-ci il üzrə xalis mənfəət | 26 | | | 2977 012,17 | **2977 012,17** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | |
| Elan edilmiş dividendlər | 3 | | | -3032 800,00 | **-3032 800,00** |
| Maddələr arasında köçürmələr | | | | -3413 432,02 | **-3413 432,02** |
| **31 dekabr 2021-ci il tarixə qalıq** | | **4 000,00** | **-** | **- 0,00** | **4 000,00** |
| 2022-ci il üzrə xalis mənfəət | 26 | | | 3421387,65 | **3421387,65** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | **-** |
| Elan edilmiş dividendlər | 3 | | | -1000 000,00 | - 1000000,00 |
| Maddələr arasında köçürmələr | | | | -2421 387,65 | **-2421 387,65** |
| **31 dekabr 2022-ci il tarixə qalıq** | | **4000,00** | **-** | **- 0,00** | **4 000,00** |

/

| | Qeyd | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə xalis mənfəət /zərər | 26 | 4 244 788,79 | 3 763 168,14 |
| Mənfəət vergisi üzrə xərclər | 26 | -823 401,14 | -786 155,98 |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | | |
| Əsas vəsaitlərin amortizasiyası | 22 | 594 243,26 | 840 461,52 |
| Əsas vəsaitlərin satışından və xaric olmasından gəlirlər/zərərlər | 22 | 264 042,68 | 78 200,00 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 3 | 1 240,03 | 1 377,81 |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər | | | |
| Ehtiyatlar üzrə artma/azalma | 3 | - 10 256,00 | 102 341,00 |
| Debitor borcları üzrə artma/azalma | 11 | 175 409,54 | 166 866,47 |
| Sair qısamüddətli maliyyə aktivləri üzrə artma/azalma | | | |
| Digər aktivlərdə | 14 | -18198612,35 | - 4605722,56 |
| Sair qısamüddətli aktivləri üzrə artma/azalma | 14 | 5 524,22 | |
| Alınmış avanslar üzrə artma/azalma | | 480 448,30 | |
| Cari vergi və sosial sığortaöhdəlikləri üzrə artma/azalma | 16 | -607 813,05 | 816 181,05 |
| Əməliyyat kreditor borcları və hesablaşmalar | | | 449 156,37 |
| Sair qısamüddətli kreditor borcları | 17 | 177 393,34 | |
| Uzunmüddətli öhdəliklər | 18 | 17 020 000,00 | 7 825 257,79 |
| Maddələr arasında baş vermiş dəyişikliklər | | | |
| Mənfəət vergisi ödənilmişdir | | | |
| ***Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | | **3 323 007,62** | **8 651 131,60** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin alınması | 3 | -112 401,11 | -1239 043,49 |
| Qeyri-maddi aktivlərin alınması | | | |
| Uzunmüddətli kapital qoyuluşları | | | |
| Xaric olmuş əsas vəsaitlərin qalıq dəyəri | | | |
| Gələcək dövrün gəlirləri | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **-112 401,11** | **-1 239 043,49** |
| ***Məzənnə fərqi*** | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına yaranan pul vəsaitlərinin xaricolmaları | | | |
| Kapital ehtiyatlarının dəyişməsi | | | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin daxilolmalar | | | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaric olmaları | 3 | -3 421 387,65 | -6 446 232,01 |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **-3 421 387,65** | **-6 446 232,01** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması)** | | **-210 781,14** | **965 856,10** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | 12 | **2 307 719,42** | **1 341 863,32** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | 12 | **2 096 938,28** | **2 307 719,42** |
| **İl ərzində artım/azalma** | | **-210 781,14** | **965 856,10** |
| | | **0,00** | **- 0,00** |

# İqtisadiyyata kredit qoyuluşu 15%-dən çox artıb

2023-cü il avqust ayının 1-nə Azərbaycan iqtisadiyyatına kredit qoyuluşları 21 milyard 372 milyon manat təşkil edib.

Trend Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, bu, cari ilin iyul ayının 1-nə olan göstərici ilə müqayisədə 0,4% çoxdur.

Ötən ilin eyni dövrü ilə müqayisədə isə iqtisadiyyata kredit qoyuluşları 15,6% və ya 2 mlrd. 884 mln. manat artıb. Belə ki, 2022-ci ilin avqust ayının 1-nə kredit qoyuluşlarının həcmi 14487.4 mln. manat təşkil edib.





# ELAN

Xalq Sığorta

**"Xalq Sığorta" Açıq Səhmdar Cəmiyyətinin Baş ofisi 24 iyul 2023-cü il tarixindən etibarən öz fəaliyyətini Bakı şəhəri, Nərimanov rayonu, akademik Həsən Əliyev küçəsi 24 ünvanında davam etdirir.**

# "Green Food Group" QSC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HESABATI

| | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| ***Uzunmüddətli aktivlər*** | | |
| Binalar, tikillilar va qurğular | 3976 751,66 | 782 215,34 |
| Maşınlar va avadanlıq | 20 318,60 | 21 388,00 |
| Nəqliyyat vasitələri | 60 562,50 | 63 750,00 |
| Digər əsas vəsaitlər | 13 869,17 | 5 722,13 |
| Qeyri-maddi aktivlər | | 2 600 000,00 |
| **Cəmi** | **4071 501,93** | **3 473 075,47** |
| **QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | **-** | **-** |
| 1.3.1 Hazır mahsul | - | - |
| 1.3.2 Mallar | - | - |
| 1.3.3 Bitmamiş istehsal | - | - |
| 1.3.4 Sair ehtiyatlar | - | - |
| **Debitor borclar** | **152 146,98** | **86 334,67** |
| 1.4.1 Dövlət büdcəsinə(vergilər üzrə) | 150 794,39 | 85 786,13 |
| 1.4.2 Sair debitor borclar | 1 352,59 | 548,54 |
| 1.4.2.1 o cümlədən, xarici borclar | | - |
| **Pul vəsaitləri** | **13 998,92** | **18 428,04** |
| **Səhmlər va iştirak payları üzra maliyyə qoyuluşları** | **-** | **-** |
| **Dövlət qiymətli kağızları** | **-** | **-** |
| **Kapitallaşdırma üçün aktivlar** | | **-** |
| **Gələcək dövrün xərcləri** | **-** | **-** |
| **Digər aktivlər** | **2 600 000,00** | |
| **Cəmi** | **2 766 145,90** | |
| **CƏMİ AKTİVLƏR** | **6 837 647,83** | **3 577 838,18** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 3 190 160,00 | 490,00 |
| Hesabat dövrünün xalis mənfəəti | 303 259,77 | 300 022,33 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 161 698,33 | 83 896,54 |
| Emissiya galiri | - | - |
| Kapital ehtiyatları | 2 790 963,63 | 2 790 963,63 |
| **CƏMİ KAPİTAL** | **6 446 081,73** | **3 175 372,50** |
| **ÖHDƏLİKLƏR** | | |
| Bank kreditlari | - | - |
| o cümlədən, xarici borclar | - | - |
| Alınmış avanslar | | - |
| Dövlət büdcəsinə vergi öhdəlikləri | 0,00 | 9 053,51 |
| Törəmə (asılı) müassisələrə kreditor borcları | - | - |
| Sair kreditor borcları | 15 124,18 | 16 970,25 |
| o cümlədən, xarici borclar | - | - |
| **Gələcək dövrün gəlirləri** | **-** | **-** |
| **Digər öhdəliklər** | **376 441,92** | **376 441,92** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **391 566,10** | **402 465,68** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **6 837 647,83** | **3 577 838,18** |

| | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|
| | **Məbləğ (manatla)** | **Məbləğ (manatla)** |
| **Əsas əməliyyat gəlirləri** | **1 317 807,22** | **1 269 058,41** |
| Satışın maya dəyəri | 711 517,38 | 630 366,89 |
| **Ümumi Mənfəət** | **606 289,84** | **638 691,52** |
| Sair əməliyyat gəlirləri | | |
| İnzibati xərclər | 148 183,83 | 150 924,36 |
| Əməliyyat mənfəəti(zərəri) | 458 106,01 | 487 767,16 |
| Maliyyə gəlirləri | | 0,00 |
| Maliyyə xərcləri | | 0,00 |
| Fövqəladə gəlirlər | | |
| Fövqəladə gəlirlər | | 0,00 |
| Amortizasiya ayırmaları, əsas vəsaitlərin təqdim edilməsi və ləğvi üzrə gəlirdən çıxılan xərclər | 4 986,860 | 86 903,95 |
| Gəlirdən çıxılan vergilər və yığımlar | 25 691,69 | 9 362,18 |
| Sair xərclər | 48 352,75 | 16 473,12 |
| **Vergitutmadan əvvəl mənfəət(zərər)** | **379 074,71** | **375 027,91** |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | | |
| **Mənfəət üzrə azadolma, güzəşt və mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri çıxılmaqla vergiyə cəlb olunan mənfəət** | **379 074,71** | **375 027,91** |
| Mənfəət vergisi | 75 814,94 | 75 005,58 |
| **Hesabat dövründə xalis mənfəət** | **303 259,77** | **300 022,33** |
| **Mənfəətdə iştirak payı:** | | |
| Səhmdarların payı | **1,19** | **375 027,91** |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | |
| 1(bir) səhmin əsas mənfəəti | **0,95** | **300 022,33** |

| | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **01 yanvar 2021-ci il tarixə qalıq** | **490,00** | **2790963,63** | **222 368,36** | **3013821,99** |
| 2021-ci il üzrə xalis mənfəət | | | 300 022,33 | 300 022,33 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | - |
| Elan edilmiş dividendlər | | | | - |
| Maddələr arasında köçürmələr | | | | - |
| Mənfəət və ehtiyatların istifadəsi | | | - 138 472,17 | -138472,17 |
| **01 yanvar 2022-ci il tarixə qalıq** | **490,00** | **2790963,63** | **383 918,52** | **3175372,15** |
| 2022-ci il üzrə xalis mənfəət | | | 303 259,77 | |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | - |
| Elan edilmiş dividendlər | | | - 220 000,00 | -220 000,00 |
| Maddələr arasında köçürmələr | | | | - |
| Mənfəət və ehtiyatların istifadəsi | | | - 2 220,19 | - 2 220,19 |
| **01 yanvar 2023-ci il tarixə qalıq** | **3190 160,00** | **2790963,63** | **464 958,10** | **6446081,73** |

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə mənfəət /zərər | 379 074,71 | 375 027,91 |
| Mənfəət vergisi üzrə xərclər | - 75 814,94 | - 75 005,58 |
| **Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər:** | | |
| · Əsas vəsaitlərin amortizasiyası | 4 986,86 | 86 903,95 |
| · Qeyri-maddi aktivlərin amortizasiyası | | |
| · Əsas vəsaitlərin satışından və xaricolmasından gəlirlər/zərərlər | | |
| **Dövriyyə kapitalında dəyişikliklər:** | | |
| · Ehtiyatlar üzrə artma/azalma | - | - |
| · Əməliyyat debitor borclarında artma/azalma | - 65 812,31 | - 10 031,75 |
| · Sair qısamüddətli aktivlərdə artma/azalma | | |
| · Sair maliyyə aktivləri | | |
| · Cari vergi öhdəlikləri | - 9 053,51 | 9 053,51 |
| · Əməliyyat kreditor borclarında artma/azalma | - 1 846,07 | 16 970,25 |
| · Sair qısamüddətli öhdəliklərdə artma/azalma | - 220,54 | - 191 277,00 |
| Əməliyyat fəaliyyətinə aid fövqəladə pul vəsaitlərinin hərəkəti | | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **231 314,20** | **211 641,29** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | - | - |
| Əsas vəsaitlərin alınması | - 3 203 413,32 | - 90 629,66 |
| Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla, uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən, kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları, uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları | | |
| Səhm alınması üçün pul vəsaitinin xaric olması | | |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | - | - |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **- 3 203 413,32** | **- 90 629,66** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Səhm buraxılışı | | |
| Kapital ehtiyatlarının dəyişməsi | 3 187 670,00 | - 105 691,63 |
| Təsisçilərin borcunun bölüşdürülməmiş mənfəət hesabına əvəzləşdirilməsi | | |
| Mənfəətin istifadəsi | - | - |
| Dividendlər və buna oxşar ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | - 220 000,00 | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | **2 967 670,00** | **- 105 691,63** |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis artması (azalması)** | - 4 429,12 | 15 320,00 |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **18 428,04** | **3 108,04** |
| **İl ərzində pul vəsaitlərinin və onların ekvivalentlərinin artması (azalması)** | - 4 429,12 | 15 320,00 |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **13 998,92** | **18 428,04** |

## Əczaçılıq məhsulları idxalında artım olub

Bu ilin yanvar-iyul aylarında 18,2 min ton əczaçılıq məhsulları idxal edilib.

Trend Dövlət Gömrük Komitəsinə istinadla xəbər verir ki, idxal edilən əczaçılıq məhsullarının dəyəri 362 milyon dollar olub. Xatırladaq ki, 2022-ci ilin eyni dövründə dəyəri 376,7 milyon dollar olmaqla, 14,5 min ton əczaçılıq məhsulları idxal edilib.

Həmçinin hesabat dövründə 71,2 min ton gübrə idxal olunub. İdxal edilən gübrənin dəyəri 44,9 milyon dollar olub. Ötən ilin yeddi ayında isə məbləği 37,8 milyon dollar olmaqla 45,5 min ton gübrə idxal edilib.



## Problemli kreditlərin məbləği 25% azalıb

Bu il avqustun 1-nə Azərbaycanda vaxtı keçmiş kreditlərin məbləği 494,7 milyon manat təşkil edib.

Bu barədə Azərbaycan Mərkəzi Bankının hesabatında qeyd edilib.

Bildirilib ki, bu, iyulun 1-i ilə müqayisədə 1,5% azdır.

Ölkədə problemli kreditlərin məbləği ilin əvvəlinə nisbətən 16,7%, son 1 ildə isə 25,3% azalıb.

Bu il iyulun sonuna vaxtı keçmiş kreditlərin ümumi kredit portfelində xüsusi çəkisi 2,2% təşkil edib. Bu nisbət iyunun sonuna 2,3%, ötən ilin sonuna 2,9%, ötən il iyunun sonunda isə 3,5% olub.



## Ölkədə bu il debitor borclar artdı

Debitor borcların həcmində artım müşahidə edilib, inzibati təsnifat üzrə siyahıda genişlənmə, iqtisadi təsnifat üzrə siyahıda isə daralma qeydə alınıb.



Trend xəbər verir ki, bu, Hesablama Palatasının "Dövlət büdcəsinin icrası barədə yarımillik məlumata xülasəsi"ndə yer alıb.

Qeyd edilib ki, bu il iyulun 1-nə debitor borcların məbləği 3150,0 mln. manat təşkil edib, ilin əvvəlinə nisbətən 95,9 mln. manat və ya 3,1% artıb. Xaricdən cəlb edilmiş kreditlər hesabına həyata keçirilən layihələr, dövlət büdcəsindən digər büdcələrə ayırmalar üzrə yaranan borclar bu məbləğə daxil edilmir.

# "Baku Food Center" QSC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HESABATI

| | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| ***Uzunmüddətli aktivlər*** | | |
| Binalar, tikillilar va qurğular | 76 813,06 | 76 813,06 |
| Maşınlar va avadanlıq | | |
| Nəqliyyat vasitələri | | |
| Digər əsas vəsaitlər | 5 722,47 | 5 722,47 |
| Qeyri-maddi aktivlər | - | |
| **Cəmi** | **82 535,53** | **82 535,53** |
| **QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | **-** | **-** |
| 1.3.1 Hazır mahsul | - | - |
| 1.3.2 Mallar | - | - |
| 1.3.3 Bitmamiş istehsal | - | - |
| 1.3.4 Sair ehtiyatlar | - | - |
| **Debitor borclar** | **80 840,81** | **167 911,25** |
| 1.4.1 Dövlət büdcəsinə (vergilər üzrə) | 80 840,81 | 167 411,25 |
| 1.4.2 Sair debitor borclar | | 500,00 |
| 1.4.2.1 o cümlədən, xarici borclar | | - |
| **Pul vəsaitləri** | **51 014,72** | **13 811,42** |
| **Səhmlər va iştirak payları üzra maliyyə qoyuluşları** | **-** | **-** |
| **Dövlət qiymətli kağızları** | **-** | **-** |
| **Kapitallaşdırma üçün aktivlar** | | - |
| **Gələcək dövrün xərcləri** | **-** | **-** |
| **Digər aktivlər** | | |
| **Cəmi** | **131 855,53** | |
| **CƏMİ AKTİVLƏR** | **214 391,06** | **264 258,20** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 2 000,00 | 900,00 |
| Hesabat dövrünün xalis mənfəəti | 43 821,25 | 22 541,36 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 28 989,72 | 33 418,47 |
| Emissiya galiri | - | - |
| Kapital ehtiyatları | | |
| **CƏMİ KAPİTAL** | **74 810,97** | **56 859,83** |
| **ÖHDƏLİKLƏR** | | |
| Bank kreditlari | - | - |
| o cümlədən, xarici borclar | - | - |
| Alınmış avanslar | | - |
| Dövlət büdcəsinə vergi öhdəlikləri | 0,00 | 2 255,41 |
| Törəmə (asılı) müassisələrə kreditor borcları | - | - |
| Sair kreditor borcları | 15 198,53 | 15 452,60 |
| o cümlədən, xarici borclar | - | - |
| **Gələcək dövrün gəlirləri** | **-** | **-** |
| **Digər öhdəliklər** | **124 381,56** | **189 690,36** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **139 580,09** | **207 398,37** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **214 391,06** | **264 258,20** |

| Qalıqlar | Məbləğ, manatla | Məbləğ, manatla |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 421 000,86 | 327 525,48 |
| Satışın maya dəyəri | 299 535,93 | 243946,54 |
| **Ümumi Mənfəət** | **121 464,93** | **83 578,94** |
| Sair əməliyyat gəlirləri | | |
| İnzibati xərclər | 61 993,14 | 47 684,55 |
| Əməliyyat mənfəəti (zərəri) | 59 471,79 | 35 894,39 |
| Maliyyə gəlirləri | | 0,00 |
| Maliyyə xərcləri | | 0,00 |
| Fövqəladə gəlirlər | | |
| Fövqəladə gəlirlər | | 0,00 |
| Amortizasiya ayırmaları, əsas vəsaitlərin təqdim edilməsi və ləğvi üzrə gəlirdən çıxılan xərclər | | |
| Gəlirdən çıxılan vergilər və yığımlar | 1 818,86 | 1 803,57 |
| Sair xərclər | 2 876,37 | 5 914,12 |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | **54 776,56** | **28 176,70** |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | | |
| **Mənfəət üzrə azadolma, güzəşt və mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri çıxılmaqla vergiyə cəlb olunan mənfəət** | **54 776,56** | **28 176,70** |
| Mənfəət vergisi | 10 955,31 | 5 635,34 |
| **Hesabat dövründə xalis mənfəət** | **43 821,25** | **22 541,36** |
| **Mənfəətdə iştirak payı:** | | |
| Səhmdarların payı | 27,39 | 28176,70 |
| Azlıqların payı | | |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | |
| 1 (bir) səhmin əsas mənfəəti | 21,91 | 22541,36 |

| | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **01 yanvar 2021-ci il tarixə qalıq** | **900,00** | **-** | **33 418,47** | **34318,47** |
| 2021-ci il üzrə xalis mənfəət | | | 22541,36 | 22541,36 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | - |
| Elan edilmiş dividendlər | | | | - |
| Maddələr arasında köçürmələr | | | | - |
| Mənfəət və ehtiyatların istifadəsi | | | - | - |
| **01 yanvar 2022-ci il tarixə qalıq** | **900,00** | **-** | **55 959,83** | **56859,83** |
| 2022-ci il üzrə xalis mənfəət | | | 43 821,25 | 43821,25 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 1 100,00 | | | 1 100,00 |
| Elan edilmiş dividendlər | | | - 22 000,00 | - 22000,00 |
| Maddələr arasında köçürmələr | | | | - |
| Mənfəət və ehtiyatların istifadəsi | | | - 4 970,11 | - 4 970,11 |
| **01 yanvar 2023-ci il tarixə qalıq** | **2 000,00** | **-** | **72 810,97** | **74 810,97** |

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə mənfəət /zərər | 54 776,56 | 28 176,70 |
| Mənfəət vergisi üzrə xərclər | - 10 955,31 | - 5 635,34 |
| **Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər:** | | |
| · Əsas vəsaitlərin amortizasiyası | - | - |
| · Qeyri-maddi aktivlərin amortizasiyası | | |
| · Əsas vəsaitlərin satışından və xaricolmasından gəlirlər/zərərlər | | |
| **Dövriyyə kapitalında dəyişikliklər:** | | |
| · Ehtiyatlar üzrə artma/azalma | | - |
| · Əməliyyat debitor borclarında artma/azalma | 87 070,44 | - 57 347,48 |
| · Sair qısamüddətli aktivlərdə artma/azalma | - | 434,00 |
| · Sair maliyyə aktivləri | - 4 970,00 | |
| · Cari vergi öhdəlikləri | - 2 509,59 | 2 253,83 |
| · Əməliyyat kreditor borclarında artma/azalma | - | 15 452,61 |
| · Sair qısamüddətli öhdəliklərdə artma/azalma | - 65 308,80 | 35 257,00 |
| Əməliyyat fəaliyyətinə aid fövqəladə pul vəsaitlərinin hərəkəti | | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **58 103,30** | **18 591,32** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | - | - |
| Əsas vəsaitlərin alınması | | - 5 722,47 |
| Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla, uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən, kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları, uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları | | |
| Səhm alınması üçün pul vəsaitinin xaric olması | 1 100,00 | |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | - | - |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **1 100,00** | **- 5 722,47** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Səhm buraxılışı | | |
| Kapital ehtiyatlarının dəyişməsi | | |
| Təsisçilərin borcunun bölüşdürülməmiş mənfəət hesabına əvəzləşdirilməsi | | |
| Mənfəətin istifadəsi | - | - |
| Dividendlər və buna oxşar ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | - 22 000,00 | - |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | **- 22 000,00** | **-** |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis artması (azalması)** | 37 203,30 | 18 591,32 |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **13 811,42** | **942,58** |
| **İl ərzində pul vəsaitlərinin və onların ekvivalentlərinin artması (azalması)** | 37 203,30 | 12 868,85 |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **51 014,72** | **13 811,43** |

## Azərbaycanda bu il nə qədər ipoteka krediti verilib?

Bu ilin yanvar-iyul aylarında İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə 279,5 milyon manat kredit verilib.

Trend Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 18,8% çoxdur.

Hesabat dövründə Fondun yenidən maliyyələşdirdiyi kreditlərin məbləği isə 36,7% artaraq, 264,7 milyon manat olub.

İl ərzində İKZF-nin istiqraz buraxmaqla cəlb etdiyi vəsaitin məbləği 30,8% artaraq, 170 milyon manata çatıb, fonda dövlət büdcəsindən ayrılmış vəsaitin məbləği isə 8% azalaraq, 65,7 milyon manata düşüb.



## Dünya birjalarında neft bahalaşıb

AZƏRTAC xəbər verir ki, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,1 dollar artaraq 84,13 dollar olub. Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,12 dollar bahalaşaraq 79,76 dollar təşkil edib.




## Hansı bank kartları ilə daha çox ödəniş edilir?

Azərbaycanda bankların "Visa" plastik bank kartları ilə ödənişləri bazarın əsas hissəsini təşkil etməkdə davam edir.




Banker.az xəbər verir ki, 2023-cü ilin iyul ayında ölkədə 7 milyard 910.3 mln. manatlıq bank kartı ilə ödənişlərin 5 milyard 355 milyon manatı "Visa" kartları ilə ödənilib. İkinci sırada "MasterCard"ın plastik kartlarıdır ki, onlarla da 2 milyard 496 milyon manatlıq ödənişlər gerçəkləşib. Üçüncü sırada cəmi 3.4 mln. manatla "American Express" dayanır.

# Azərbaycanın iqtisadi gücünün təntənəsinə çevrilən quruculuq

**(əvvəli keçən sayımızda)**

**2300 km-lik 20 avtomobil yolu**

Son 20 ilin mənzərəsi göstərir ki, dövlət proqramları, əsaslı investisiya qoyuluşları yol-nəqliyyat kompleksindəki problemlərin həllində, bu sistemin müasir dövrün tələblərinə uyğunlaşdırılmasında mühüm rol oynayıb. Nəticə etibarilə ümumi istifadədə olan yerli əhəmiyyətli magistral yolların, eləcə də rayonlararası, şəhərdaxili yolların təmiri və yenidənqurulması prosesi geniş vüsət alıb. Görülmüş tədbirlər nəticəsində ölkədə yol infrastrukturu daha da yaxşılaşdırılıb və beynəlxalq standartlara uyğunlaşdırılıb, Azərbaycan qlobal nəqliyyat qovşağı kimi mövqelərini möhkəmləndirib.

Torpaqlarımızın işğaldan azad edilməsi isə yol-nəqliyyat infrastrukturu sahəsində çağırışları yeniləyib və azad edilmiş ərazilərdə yolların bərpasını bu sahə üzrə məsul olan qurumların bir nömrəli vəzifəsinə çevirib. Təsadüfi deyil ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasında ilk addım da avtomobil yollarının yenidən qurulması ilə bağlı oldu. Cəmi 2 il ərzində Qarabağ və Şərqi Zəngəzurda onlarla yeni yolun təməli qoyulub və onlardan bir neçəsinin inşası başa çatdırılıb.

Məlumdur ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev azad olunmuş ərazilərin bərpası ilə bağlı göstərişlərini hələ Vətən müharibəsinin davam etdiyi günlərdə vermiş, ilk olaraq azad olunmuş Suqovuşan, Talış və Çaylı kəndlərinə aparan yolların bərpasına başlanılmışdı. Prezident İlham Əliyevin azad edilmiş rayonlara ilk səfəri zamanı, 2020-ci ilin noyabrın 16-da isə Füzuli rayonu ərazisindən Şuşa şəhərinə çəkiləcək yeni avtomobil yolunun – qəhrəman hərbçilərimizin Şuşaya doğru saldıqları cığırlar üzərində layihələşdirilən «Zəfər yolu»nun təməli qoyulmuşdu. Prezident İlham Əliyevin bu yolu "Zəfər yolu" adlandırması təsadüfi deyil. Bu yolboyu torpaqların hər qarışına şəhid və qazilərimizin qanı qarışıb. Başqa sözlə, qəhrəman Azərbaycan Ordusu döyüşərək, şəhidlər verərək, Şuşanı düşməndən azad edib, zəfər qazanıb.

***Fəxarət hissi ilə qeyd etməliyik uzunluğu 28,5 km təşkil edən Tərtər-Çaylı-Suqovuşan-Talış yolunun və 101,5 km-lik "Zəfər yolu"nun tikintisi vaxtında - 2021-ci ildə başa çatdırılıb. Xatırladım ki, Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yolları ötən əsrin 70-ci illərində Suqovuşan su anbarının tikintisi ilə əlaqədar Ulu Öndər Heydər Əliyevin tapşırığına əsasən inşa edilmişdi. Bu yol uzun müddət düşmən tapdağı altında olduğundan tamamilə sıradan çıxmış və dağılmışdı. Prezident İlham Əliyevin göstərişi ilə qısa zamanda yenidən qurulan bu yolun davamı olan 22 km-lik Talış-Tapqaraqoyunlu-Qaşaltı avtomobil yolunun inşası isə davam edir.***

«Zəfər yolu» Qarabağ iqtisadi rayonunun inkişaf planı nəzərə alınaraq, 2 hərəkət zolaqlı olmaqla inşa olunub. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə "Zəfər yolu" Qarabağımızın tacı olan Şuşa şəhərinə qədər uzanır.

2022-ci ilin oktaybr ayında Şükürbəyli–Cəbrayıl–Hadrut avtomobil yolunun 14,2 kilometrlik Şükürbəyli-Cəbrayıl hissəsi, 2023-cü ilin may ayında isə 8,2 kilometrlik hissəsinin açılışı olub. Azərbaycan Prezidentinin 2021-ci il 29 aprel tarixli Sərəncamına əsasən inşa olunan 39,7 kilometrlik bu yol işğaldan azad edilmiş



Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla həmin rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edir.

2023-cü ilin may ayında isə işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Ümumi uzunluğu 12,3 kilometr olan yol birinci texniki dərəcəlidir. Bu yol başlanğıcını "Zəfər yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir.

Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yolların bərpası və yenidən qurulması işləri çərçivəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən işlər sürətlə davam etdirilir. Ümumi uzunluğu 2241,5 km təşkil edən 18 avtomobil yolunun layihələndirilməsi və tikintisi işləri davam etdirilir. Bu layihələrdən 12-sinin icrasının 2023-cü, 2 layihənin 2024-cü, 3 layihənin 2025-ci, 1 layihənin isə 2026-cı ildə başa çatdırılması nəzərdə tutulur.

Belə ki, bu il 22 km-lik, 2 hərəkət zolaqlı Talış-Tapqaraqoyunlu-Qaşaltı, 44,5 km-lik, 4 hərəkət zolaqlı Bərdə-Ağdam, 28,5 km-lik, 2 hərəkət zolaqlı Qubadlı-Eyvazlı, 26,4 km-lik, 2 hərəkət zolaqlı Qubadlı-Mahmudlu-Yazdüzü-Ermənistan sərhədi, 22 km-lik, 2 hərəkət zolaqlı Horadiz-Tuğ-Azıx mağarası, 70,4 km-lik, 4 hərəkət zolaqlı Xudafərin-Qubadlı-Laçın yollarının çəkilişi başa çatdırılacaq. 39,7 km-lik, 4 hərəkət zolaqlı Şükürbəyli-Cəbrayıl-Hadrut, 64,8 km-lik, 4 hərəkət zolaqlı Ağdam-Füzuli, 45 km-lik, 2 hərəkət zolaqlı Ağdam-Hindarx-Ağcabədi avtomobil yollarının, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun İranla bağlantısının və Araz çayı üzərində körpülərin tikintisinin, həmçinin 1182,7 km təşkil etməklə və 2 hərəkət zolaqlı olmaqla Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun tikintisinin də bu il başa çatdırılması planlaşdırılır.

2024-cü ildə 81,6 km-lik, 4 hərəkət zolaqlı Əhmədbəyli-Füzuli-Şuşa və Laçında hava limanının tikintisi ilə əlaqədar qazma-partlatma və torpaq işlərinin, 2025-ci ildə 123,9 km-lik, 4-6 hərəkət zolaqlı Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, 81,6 km-lik, 2-4 hərəkət zolaqlı Toğana-Kəlbəcər-İstisu və 76,3 km-lik, 2-4 hərəkət zolaqlı Kəlbəcər-Laçın avtomobil yolunun tikintisinin başa çatdırılması nəzərdə tutulur. Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu həm də strateji əhəmiyyəti ilə seçilir. Çünki bu yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olacaq. Digər tərəfdən bu yol Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə nəqliyyat əlaqələrinin gücləndirilməsi baxımından çox böyük əhəmiyyətə malikdir.

***İşğaldan azad edilmiş ərazilərimizdəki yol layihələrinin əsas hissəsi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən, bir neçə layihə isə Türkiyə şirkətləri tərəfindən icra olunur.***

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrində ümumi uzunluğu 66 km-ə yaxın olan 39 avtomobil tunelinin inşası da həyata keçirilir.

2026-cı ilə qədər həm də azad edilmiş bütün şəhərlərin daxili yollarının tikintisinin başa çatdırılması proqnozlaşdırılır.

Qeyd edim ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən 2022-2026-cı illər ərzində ümumi uzunluğu təxminən 2300 km-ə yaxın 20 avtomobil yolu layihəsinin və Laçın Beynəlxalq Hava Limanının tikintisi ilə əlaqədar qazma-partlama və torpaq işlərinin yerinə yetirilməsi qarşıya qoyulub.

Diqqəti çəkən məqamlardan biri odur ki, hazırda bu ərazilərdə hətta sovet dövründə olmamış marşrutlarda da yeni yollar salınır və bütün Qarabağ və Şərqi Zəngəzuru əhatə edən geniş yol-nəqliyyat şəbəkəsi yaradılır.

***Yol həm də inkişaf, yüksəliş və rifah deməkdir. Bu gün Qarabağ və Şərqi Zəngəzurda salınan yollar azad olunmuş ərazilərimizin bərpasında böyük rol oynadığı kimi, gələcəkdə bu torpaqların inkişafına xidmət göstərəcək.***

Azad edilmiş ərazilərdə yaradılan yeni yollar həm də Azərbaycanın quruculuq əzminin göstəricisidir. Ən əsası bu yolların hər biri dövlətimizin gücünü, malik olduğu potensialı, Prezident İlham Əliyevin qətiyyətini və siyasi iradəsini təcəssüm etdirir. Təbii ki, həyata keçirilən layihələr son deyil, çünki şəhər və kəndlərimiz bərpa olunduqca, yerli və məhəlli əhəmiyyətli yeni yollar inşa ediləcək.

**200 kilometrə yaxın dəmir yolu xətti**

İşğaldan azad edilmiş ərazilərimizin yol-nəqliyyat infrastrukturunun yenidən qurulması yalnız avtomobil yollarının inşası ilə yekunlaşmır. Bu sahədə həyata keçirilən layihələrin bir qismini də regionda dəmir yolu xətlərinin bərpası və yeni xətlərin çəkilişi təşkil edir. Dəmir yolu ilə yüklərin daşınması iqtisadi baxımdan daha sərfəlidir. Xüsusən logistikanın ucuzlaşdırılması baxımından dəmir yolları şəbəkəsinin yaradılması və köhnə yolların yenidən işlək vəziyyətə gətirilməsinin ciddi əhəmiyyəti var.

***Xatırladım ki, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan dəmir yollarının 240,4 km sahəsi işğal altına düşmüşdü. Bura Horadiz-Ordubad sahəsi üzrə 144 km (o cümlədən, Mehri rayonu üzrə 43,4 km), Mincivan-Qafan sahəsi üzrə 39,1 km, Təzəkənd-Xankəndi sahəsi üzrə 51 km, Qazax-Barxudarlı sahəsi üzrə 6,3 km sahə daxildir. İşğal nəticəsində dəmir yolunun təsərrüfatlarına təxminən 45 mln. 60 min dollar məbləğində ziyan dəyib.***

1992-ci ilin aprel ayından Mincivan dövriyyə deposu tamam dağıdılıb. Depoda olan 10 ədəd müxtəlif markalı teplovoz blokadada qalıb, təqribən 14 mln. dollar həcmində ziyan dəyib. Vaqon təsərrüfatına dəyən ziyanın təqribi miqdarı 4 mln. 860 min dollar məbləğindədir. Horadiz-Mincivan-Qafan-İmişli stansiyalarında olan vaqonların texniki-müayinə məntəqələri, cari təmir sexləri, qaldırıcı mexanizmlər, vaqonların təmiri üçün xüsusi dalan yolları, xeyli miqdarda yük vaqonları və sairə texniki avadanlıqlar dağıdılıb. Yol təsərrüfatı üzrə dəyən ziyanın miqdarı 10 mln. 250 min dollar təşkil edir. Bura istehsal gücü 200 min kub olan çınqıl zavodu, yol distansiyalarının emalatxanaları, drezinlər, qaldırıcı qurğular, ağır maşın-mexanizmləri, inzibati binalar, yoldəyişdirici qurğular, müxtəlif tipli relslər, böyük və orta körpülər, tunellər, qalereyalar, keçidlər və s. avadanlıqlar daxildir.

Hazırda azad edilmiş ərazilərdə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən Horadiz-Ağbənd və Bərdə-Ağdam dəmir yolu xətlərinin tikintisi həyata keçirilir.

Horadiz-Ağbənd dəmir yolu xətti azad olunmuş ərazilərimizdə həyata keçirilən ən iri yol-nəqliyyat layihələrindəndir. Layihənin təməli 2021-ci il fevral ayının 14-də Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfərləri zamanı qoyulub. Həmin gün Laçın rayonunda Güləbird su elektrik stansiyasının istifadəyə verilməsi zamanı bu dəmir yolu barədə danışan Prezident İlham Əliyev deyib: ***«Bizim böyük planlarımız var. Biz bərpa işlərinə start verdik. Çalışacağıq ki, minalardan təmizləmə işləri qısa müddət ərzində başa çatsın, dəymiş ziyanın qiymətləndirilməsi aparılsın və bununla paralel olaraq, artıq infrastruktur layihələrinə start verildi. Bu gün Horadizdə Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun təməl daşı qoyuldu. Bu dəmir yolunun çox böyük strateji əhəmiyyəti var. İlk növbədə ona görə ki, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Artıq bu işlərə start verildi. Bizim təşəbbüsümüzlə həyata keçirilən bu layihə, əminəm ki, icra ediləcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək».***

İndiyədək dəmir yolu xəttinin layihələndirilməsi işləri 78% yerinə yetirilmiş, tikinti işlərinin isə 38%-i (53,2 km) icra edilmişdir. Horadiz-Ağbənd dəmir yolu xəttinin Həkəri çayı üzərindən keçən hissəsində 13 aşırımlı və uzunluğu 418 metr olan dəmir-yol körpüsünün tikintisi üzrə işlərin 85%-i tamamlanmışdır. Yolun inşasının 2024-cü ildə başa çatdırılması nəzərdə tutulub.



**Ziyad SƏMƏDZADƏ,**
**akademik**

Ümumi uzunluğu 140 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Belə ki, bu dəmir yolu xətti ölkəmiz üçün həm strateji, həm də ciddi iqtisadi əhəmiyyətə malik olmaqla yanaşı, Zəngəzur dəhlizinin əsas elementlərindən biri olacaq. Onun istifadəyə verilməsi ilə işğaldan azad olunan ərazilərimizə gediş-gəliş daha da asanlaşacaq, vətəndaşlarımız alternativ nəqliyyat imkanından istifadə edə biləcəklər.

Digər tərəfdən, dəmir yolu nəqliyyatının inkişaf etdirilməsi kontekstində bu yolun istifadəyə verilməsi praktik olaraq Azərbaycanı regionun nəqliyyat qovşaqlarının habına çevirir. Çünki beynəlxalq əhəmiyyətli marşrut olmaqla Horadiz-Ağbənd dəmir yolu yaxın gələcəkdə Asiya ilə Avropa arasında yüklərin sürətlə daşınmasında böyük rol oynayacaq. Eyni zamanda, bu yol Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə beynəlxalq nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək.

Azərbaycanla yanaşı, regionda maraqları olan dövlətlər də bu dəhlizdən maksimum yararlanmaq imkanı əldə edəcəklər. Misal üçün, Rusiya uzun müddətdir ki, Yaxın Şərqə quru yolla yüklərin daşına bilməsi üçün marşrutlar axtarışındadır. Bu baxımdan çox əlverişli vəziyyət yaranır. Çünki Rusiya məhz həmin dəhlizdən istifadə edərək, öz yüklərini Türkiyə və Yaxın Şərq istiqamətində daşımaq imkanı əldə edir. Eyni ilə də Türkiyənin Rusiya bazarlarına çıxışı həmin dəmir yolu vasitəsilə baş verəcək. Yəni, bu iqtisadi cəhətdən, həm də geostrateji nöqteyi-nəzərdən olduqca uğurlu layihədir.

Azərbaycan Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamına əsasən inşa olunan Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisinin 2023-cü ildə başa çatdırılması nəzərdə tutulur. Uzunluğu 47,1 kilometr (yan yolları ilə birlikdə 57 kilometr) olan bu dəmir yolu təkxətlidir. Yol boyunca Bərdə, Köçərli, Təzəkənd və Ağdam stansiyaları fəaliyyət göstərəcək. Dəmir yolu xəttinin layihələndirilməsi işləri 90 faiz yerinə yetirilib, Ağdam vağzalının təməli qoyulub. Dəmir yolu xəttinin 32,8 kilometrlik hissəsində relslər quraşdırılıb.

**(davamı gələn sayımızda)**

# Азербайджан и Узбекистан подписали солидный пакет

Количество совместных азербайджано-узбекских предприятий за последние годы выросло в 4 раза.
Об этом заявили на азербайджано-узбекском бизнес-форуме в понедельник в Баку, в котором приняли участие представители свыше 250 компаний двух стран.
Интерфакс-Азербайджан пишет, что на форуме говорилось об увеличившемся в шесть раз взаимном товарообороте по итогам 2022 года, а с начала 2023 года – еще на 40%.
«Главами государств поставлена задача довести показатель до $1 млрд в ближайшие годы, в том числе за счет увеличения взаимных поставок фармацевтической и нефтехимической продукции, пластмассовых изделий, полимеров и продукции горнорудной промышленности», - сказали на форуме.



Еще одним перспективным направлением взаимодействия указана промышленная кооперация: «За последние годы количество совместных предприятий выросло в четыре раза. На сегодняшний день в Узбекистане функционируют свыше 200 предприятий с азербайджанским капиталом».
Начата практическая реализация таких значимых совместных проектов, как расширение производства автомобилей, создание хлопково-текстильных и шелководческих кластеров в Азербайджане, а также выпуск стройматериалов и ювелирных изделий в Узбекистане.
Наряду с этим, перспективными направлениями сотрудничества обозначены энергетика, металлургия, градостроительство, фармацевтика, электротехника, сельское хозяйство и пищевая промышленность, а также нефтегазовая отрасль.
По итогам форума был подписан солидный пакет торговых контрактов и инвестиционных соглашений в сфере аккредитации, нефтегазовой, химической отраслей, горнорудной промышленности, производстве фармацевтической продукции и бытовой техники.

# Азербайджан представил в Международный суд свои замечания по Армении

Азербайджан представил в Международный суд свои замечания относительно предварительных возражений Армении в деле (Азербайджан против Армении) о применении Международной конвенции о ликвидации всех форм расовой дискриминации.
Об этом говорится в публикации замминистра иностранных дел Азербайджана Эльнура Мамедова в соцсети X (ранее Twitter).




«Нарушение Арменией Международной конвенции о ликвидации всех форм расовой дискриминации напрямую подпадает под юрисдикцию Международного суда», - указывается в публикации.

# Петришенко: Беларусь и Азербайджан активно взаимодействуют в сфере физкультуры и спорта



Беларусь и Азербайджан активно взаимодействуют в сфере физкультуры и спорта. Об этом заявил заместитель премьер-министра Беларуси Игорь Петришенко во время встречи с заместителем премьер-министра Азербайджана Шахином Мустафаевым, передает корреспондент БЕЛТА.

# Венгрия будет закупать у Азербайджана больше газа

Будапешт и Баку достигли соглашения о поставке 1 млрд куб. м. газа в Венгрию. Как сообщает «Интерфакс-Азербайджан», об этом заявил глава Министерства иностранных дел Венгрии Петер Сийярто.
Сийярто подчеркнул, что Венгрия давно развивает партнерство с Азербайджаном. Он объявил, что существует контракт, согласно которому в четвертом квартале 2023 года Венгрия будет закупать у Азербайджана 100 миллионов кубических метров газа.
«У нас есть договор, согласно которому в четвертом квартале 2023 года мы закупим у Азербайджана 100 млн куб. м. газа. Кроме этого, появилось также ясное политическое соглашение, что закупки вырастут до договора о примерно 1 млрд куб. м газа в последующий период», — подчеркнул министр.
В июне текущего года Азербайджанская SOCAR и венгерская MVM CEEnergy заключили контракт на поставку 100 млн куб. м. азербайджанского газа в Венгрию в 2023 году, с поставками, начинающимися в четвертом квартале.
Ранее Сийярто сообщал о планах Венгрии закупать до 2 млрд куб. м. газа из Азербайджана.

# Петришенко: планируется визит в Беларусь премьер-министра Азербайджана

«Мы традиционно вместе с Азербайджаном активно развиваем сферу физической культуры и спорта высших достижений. Вы провели Европейские игры, потом мы эстафету подхватили. Мы провели Игры стран СНГ и будем вам торжественно передавать эстафету проведения следующих Игр. Кстати, хочу поздравить вашу команду с успешным выступлением на Играх. Поддерживаем наших азербайджанских друзей во всех видах спорта», - сказал Игорь Петришенко.



# "Организация на самом высоком уровне". Вице-премьер азербайджана о II играх стран СНГ

Он отметил, что Беларусь и Азербайджан очень активно развивают сотрудничество по всем направлениям, в этом году 30-летие дипломатических отношений. Тон двустороннему взаимодействию задают постоянные контакты лидеров двух стран, также регулярно встречаются главы правительств. Налажено и молодежное сотрудничество. «Надеюсь, сегодняшняя встреча послужит активизации нашего взаимодействия в сферах экономики, промышленной кооперации, спорта, туризма, культуры», - добавил вице-премьер.




# Кубок мира: Ниджат Абасов обыграл второго шахматиста планеты



На Кубке мира в Баку по шахматам прошли первые партии финала и матча за 3-е место.
Азербайджанский гроссмейстер Ниджат Абасов в споре за бронзовую медаль белыми фигурами сумел одолеть американца Фабиано Каруану!
А в финальном матче встречаются обидчик Ниджата Магнус Карлсен и индийский вундеркинд Рамешбабу Прагнанандха. В первом поединке Карлсен играл черными. Партия завершилась вничью.
Возвращаясь к выступлению Ниджата Абасова, напомним, что на пути к матчу за 3-е место он поочередно прошел зимбабвийца Макото Родвелла, француза Лорана Фрессине, нидерландца Аниша Гири, россиянина Петра Свидлера, Салеха Салема из ОАЭ и Сантоша Гуджрати Видита из Индии.
Ниджат уступил в полуфинале лидеру мирового рейтинга Магнусу Карлсену со счетом 0,5:1,5.
Ниджат Абасов за время Кубка мира поднялся в рейтинге на 39 позиций и сейчас с показателем 2680 занимает 58-е место.
Пробившись в полуфинал, азербайджанский гроссмейстер практически гарантировал себе участие в турнире претендентов на чемпионскую корону.
Как известно, согласно регламенту, в нем получат право сыграть трое лучших шахматистов по итогам Кубка мира. Но Магнус Карлсен уже заявил, что играть в претендентском турнире не будет. Это означает, что Ниджат Абасов в любом случае окажется в заветной тройке.
Выход в полуфинал Кубка мира – это второй результат за всю историю выступления азербайджанских шахматистов на этом соревновании. Лучшего результата добивался только Теймур Раджабов, ставший обладателем трофея в 2019 году. Шахрияру Мамедъярову и Вугару Гашимову удавалось добраться до четвертьфинала.

# Зеленский: Украина создала альтернативный зерновой коридор

Президент Украины Владимир Зеленский во время визита в Грецию заявил о создании Украиной альтернативного зернового коридора.
Об этом он сказал на совместной пресс-конференции с премьер-министром Греции Кириакосом Мицотакисом, сообщают украинские СМИ.
Зеленский отметил, что Украина делает все возможное, чтобы восстановить безопасность побережья Черного и Азовского морей. «Это важно с глобальной точки зрения. С точки зрения продовольственной безопасности для всего мира, разных регионов, в том числе регионов Африки, которые рядом с Южной Европой. Украина создала альтернативный зерновой коридор в Черном море. Он может работать. Но чтобы его работа была стабильной, мы нуждаемся в усилении воздушного щита. И это очень важно для Черноморского региона, в частности, для нашего города Одесса», – добавил он. Зеленский находится в Греции с рабочим визитом, у него запланирован ряд встреч, также на повестке дня саммит Украина – Балканы. По итогам переговоров с Мицотакисом президент Украины сообщил, что Греция присоединится к программе обучения украинских пилотов на F-16.
17 июля 2023 года РФ объявила о выходе из зернового соглашения, которое действовало с 1 августа прошлого года. Зеленский в тот же день направил генеральному секретарю ООН Антониу Гутерришу и президенту Турции Реджепу Тайипу Эрдогану предложение продолжить работу Черноморской зерновой инициативы или ее аналога в трехстороннем формате. 18 августа стало известно, что Россия, Турция и Катар готовят новый договор вместо зерновой сделки. Об этом сообщила немецкая Bild со ссылкой на служебную переписку между МИД и посольствами России и Турции с 21 июля по 8 августа.

# Naxçıvanın büdcə gəlirləri artıb



Bu ilin yanvar-iyul aylarında Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlirləri 2022-ci ilin eyni dövrü ilə müqayisədə 9,1 milyon manat və ya 10 % artaraq, 99,2 milyon manat təşkil edib.
Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, bu barədə nazirliyin bu ilin 7 ayında görülmüş işlər və qarşıda duran vəzifələrə dair kollegiya iclasında qeyd olunub.
Maliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən İsmayılov çıxış edərək bildirib ki, burada əsas məqamlardan biri ötən il Naxçıvanın büdcə gəlirlərinə aid edilən gömrük yığımları üzrə gəlirlərin (yol vergisi üzrə daxilolmalar istisna olunmaqla) muxtar respublika gəlirlərindən çıxarılaraq Azərbaycan dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirlərinə aid edilməsinə baxmayaraq, Naxçıvan Muxtar Respublikasının gəlirlərinin icrası ötən ilə nisbətən müsbət göstəricilərə malik olub.
Bildirilib ki, büdcənin xərclərində də nəzərə çarpacaq dərəcədə dəyişikliklər olub, büdcənin xərclərində qənaət təmin edilib, ötən ilin eyni dövrü ilə müqayisədə xərclər 47,4 milyon manat (14,1%) azalaraq, bu ilin 7 ayında 287,8 milyon manat təşkil edib.
Hesabat dövründə Muxtar Respublikanın büdcəsinin icrasına qanunamüvafiq qaydada aparılmış nəzarət tədbirlərinin davam etdirilməsi, büdcə xərclərinin icrası zamanı büdcə təşkilatları tərəfindən "Dövlət satınalmaları haqqında" Qanunun tələblərinə əməl edilməsinə maliyyə orqanları tərəfindən nəzarət təmin edilərək əsassız xərclərin qarşısının alınmasının büdcə xərclərinin azalmasında rolu da vurğulanıb.

# Bu ilin iqtisadi artımının həcmi açıqlanıb

İqtisadi artım tamamilə qeyri neft-qaz sahələri hesabına təmin edilib, daxili tələb amilləri məcmu tələbin aktivləşməsində əsas rol oynayıb.
Trend xəbər verir ki, bu, Hesablama Palatasının "Dövlət büdcəsinin icrası barədə yarımillik məlumata xülasəsi"ndə yer alıb.
Qeyd edilib ki, hesabat dövründə iqtisadi artım 0,5% (2022-ci ilin 6 ayında 6,2%) olub və tamamilə qeyri neft-qaz sahələri hesabına təmin edilib. İqtisadi artımın zəifləməsi neft hasilatının azalması, bəzi qeyri neft-qaz sahələrində yuxarı baza effekti nəticəsində artım tempinin zəifləməsi ilə izah olunur. Qeyri neft-qaz sahələrinin 3,1% artımında əsas rol turizm və tikinti sektorlarına aiddir, tikintidə 9,2% artım əsas kapitala daha çox investisiya yönəldilməsi ilə bağlı olub. 18,0 mlrd. ABŞ dolları olan ixrac 2,8% azalsa da, 8,2 mlrd. ABŞ dolları olan idxal həcmi 29,0% artıb, məcmu tələbin artımı daxili amillərdən formalaşıb.



# Dövlət əmlakının özəlləşdirilməsindən büdcəyə daxilolmalar artıb



Bu ilin yanvar-iyul aylarında Azərbaycanda dövlət əmlakının özəlləşdirilməsindən dövlət büdcəsinə 69 milyon manat vəsait daxil olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,1 dəfə çoxdur. Trend bu barədə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə istinadən xəbər verir.
Məlumata görə, hesabat dövründə 1 il əvvələ nisbətən 22,5% az - 31 özəlləşdirmə hərracı keçirilib.
Hərraclarda 8 səhmdar cəmiyyətinin səhm paketi (38,5% az), 11 kiçik dövlət müəssisəsi (10% çox), 2 yarımçıq tikili sahəsi (eyni) və 303 nəqliyyat vasitəsi (8,3% az) özəlləşdirilib.
7 ayda hərraca çıxarılmış dövlət əmlakı üzrə 167 elektron sifariş (25,1% az) qəbul edilib, hərraclarda iştirak etmək məqsədilə "Elektron hərrac" proqram təminatı vasitəsilə 35 onlayn qoşulma (43,55%) reallaşıb, hərrac vasitəsilə 28 faydalı qazıntı yatağı sahibkarların istifadəsinə verilib.

# Füzuli şəhərinə köçürülən ailələrin məşğulluğuna dəstək işlərinə başlanıb



Böyük Qayıdış proqramı üzrə Füzuli şəhərinə köçürülən sakinlərin də məşğulluğuna dəstək işlərinə başlanıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin nümayəndələri Füzuli şəhərinə ilk köçürülən 23 ailə yerləşdikdən sonra onlarla ünvanlarında görüşlər keçirib.
Həmin ailələrin üzvlərinin məşğulluq imkanları qiymətləndirilib, onlara aktiv məşğulluq proqramları (özünüməşğulluq proqramı, peşə hazırlığı kursları, işədüzəltmə tədbirləri və s.) barədə məlumatlar verilib. Qiymətləndirmənin nəticəsinə uyğun olaraq qeyd edilən proqramlar çərçivəsində həmin vətəndaşların məşğulluğuna dəstək işləri aparılır.

# QHT layihənin icrasına başlamışdır

Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin qrantı hesabına "Peşəyönümlü Təhsilin İnkişafına Yardım" İB «Milli universitetlərimizin tədqiqat və innovativ fəaliyyət modelinin tədqiqi" adlı layihənin icrasına başlamışdır. Layihə müddətində beynəlxalq təcrübənin öyrənilməsi əsasında müasir universitet modelinin, universitetlərdə tədqiqat və innovativ fəaliyyətin təşkili və vəziyyətinin təhlili aparılacaq, təhlil və monitorinq işləri nəticəsində universitetlərimizdə tədqiqat və innovativ fəaliyyətin qısa təsviri hazırlanacaqdır. Tədqiqatın nəticələrinin 2 təhsil müəssisəsində tədqimatı nəzərdə tutulur. Layihə 4 ay davam edəcəkdir.

# "Ceremony Hall" QSC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HESABATI

| | Qeyd | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Əmlak və avadanlıqlar (Əsas vəsaitlər) | 3 | 4 516 312,54 | 4525175,49 |
| Qeyri-maddi aktivlər | | - | |
| Verilmiş borclar | | | |
| İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | | |
| Təxirə salınmış vergi aktivləri | | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | **4516 312,54** | **4525 175,49** |
| ***Qısamüddətli aktivlər*** | | | |
| Ehtiyatlar | 3 | 38 841,96 | |
| Qısamüddətli debitor borcları | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 3 | 258 104,42 | 206,27 |
| Digər aktivlər | | | |
| Sair qısamüddətli aktivlər | | | |
| Gələcək dövrün xərcləri | | | |
| Sair qısamüddətli maliyyə aktivləri | | | |
| **Cəmi qısamüddətli aktivlər** | | **296 946,38** | **206,27** |
| **CƏMİ AKTİVLƏR** | | **4 813 258,92** | **4 525 381,76** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| Nizamnamə kapitalı | 1 | 2 000,00 | 90,00 |
| Kapital ehtiyatları | | | |
| Hesabat dövrünün bölüşdürülməmiş xalis mənfəəti /zərəri | 26 | 190 882,13 | |
| Əvvəlki illərin bölüşdürülməmiş xalis mənfəəti /zərəri | | | |
| **CƏMİ KAPİTAL** | | **192 882,13** | **90,00** |
| **Öhdəliklər** | | | |
| *Uzunmüddətli öhdəliklər* | | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Gələcək dövrün gəlirləri | | | |
| Təxirə salınmış vergi öhdəlikləri | | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **-** | **-** |
| ***Qısamüddətli öhdəliklər*** | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Qısamüddətli borclar (alınmış avanslar) | | | |
| Qısamüdətli kreditor borcları | 17 | 13 884,80 | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 16 | 26 070,23 | |
| Sair qısamüdətli öhdəliklər | 18 | 4580 421,76 | 4 525 291,76 |
| **Cəmi qısa müddətli öhdəliklər** | | **4 620 376,79** | **4 525 291,76** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **4 620 376,79** | **4 525 291,76** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **4 813 258,92** | **4 525 381,76** |

| | Qeyd | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 19 | 1 424 769,00 | |
| Satışın maya dəyəri | 22 | - 1 055 622,64 | |
| **Ümumi mənfəət (zərər)** | | **369 146,36** | **-** |
| Daşınmaz əmlakın icarəsindən gəlirləri | | | |
| Kommersiya xərcləri | | | |
| İnzibati xərclər | 22 | - 17 045,27 | |
| Sair əməliyyat xərcləri | | | |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **352 101,09** | **-** |
| Maliyyə gəlirləri | | | |
| Maliyyə xərcləri | | | |
| Fövqəladə gəlirlər | | | |
| Fövqəladə xərclər | | | |
| Vergidən azad olan gəlirlər üzrə xərclər | | | |
| Vergidən azad olan gəlirlər | | | |
| Gəlirdən çıxılan vergilər və yığımlar | 22 | - 161 218,96 | |
| Məzənnə fərqi | | | |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | 24 | **190 882,13** | **-** |
| Keçmiş illərin zərərinə silinir | | **-** | **-** |
| Mənfəət üzrə azadolmalar və güzəştlər | | **-** | **-** |
| Vergidən azad olan gəlirlər | | **-** | **-** |
| **Vergiyə cəlb olunan mənfəət** | 24 | **190 882,13** | **-** |
| Mənfəət vergisi xərci | | | - |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 26 | **190 882,13** | **-** |
| **Mənfəətdə iştirak payı:** | | | |
| **Səhmdarların payı** | 26 | 954,41 | - |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | | |
| **Bir səhmin əsas mənfəəti** | 26 | 954,41 | - |

| | Qeyd | Nizamnamə Kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| **31 dekabr 2020-ci il tarixə qalıq** | | **90,00** | | - | **90,00** |
| 2021-ci il üzrə xalis mənfəət | | | | | - |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | |
| Elan edilmiş dividendlər | | | | | - |
| Maddələr arasında köçürmələr | | | | | - |
| **31 dekabr 2021-ci il tarixə qalıq** | | **90,00** | **-** | **-** | **90,00** |
| 2022-ci il üzrə xalis mənfəət | 26 | **1 910,00** | | 190 882,13 | **192792,13** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | - |
| Elan edilmiş dividendlər | | | | | - |
| Maddələr arasında köçürmələr | | | | | - |
| **31 dekabr 2022-ci il tarixə qalıq** | | **2 000,00** | **-** | **190 882,13** | **192882,13** |

| | Qeyd | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə xalis mənfəət /zərər | 26 | 190 882,13 | |
| Mənfəət vergisi üzrə xərclər | | - | |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | | |
| Əsas vəsaitlərin amortizasiyası | 22 | 63 126,14 | |
| Əsas vəsaitlərin satışından və xaric olmasından gəlirlər/zərərlər | | | |
| Qeyri-maddi aktivlərin amortizasiyası | | | |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər | | | |
| Ehtiyatlar üzrə artma/azalma | 10 | - 38 841,96 | |
| Debitor borcları üzrə artma/azalma | | | |
| Sair qısamüddətli maliyyə aktivləri üzrə artma/azalma | | | |
| Digər aktivlərdə | | | |
| Sair qısamüddətli aktivləri üzrə artma/azalma | | | |
| Alınmış avanslar üzrə artma/azalma | | | |
| Cari vergi və sosial sığorta öhdəlikləri üzrə artma/azalma | 16 | 26 070,23 | |
| Əməliyyat kreditor borcları və hesablaşmalar | | | |
| Sair qısamüddətli kreditor borcları | 17 | 13 884,80 | |
| Sair qısamüddətli öhdəliklər | 18 | 55 130,00 | |
| Maddələr arasında baş vermiş dəyişikliklər | | | |
| Mənfəət vergisi ödənilmişdir | | | |
| ***Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | | **310 251,34** | **-** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin alınması | 6 | - 54 263,19 | |
| Qeyri-maddi aktivlərin alınması | | | |
| Uzunmüddətli kapital qoyuluşları | | | |
| Xaric olmuş əsas vəsaitlərin qalıq dəyəri | | | |
| Gələcək dövrün gəlirləri | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **- 54 263,19** | **-** |
| ***Məzənnə fərqi*** | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına yaranan pul vəsaitlərinin xaricolmaları | | | |
| Kapital ehtiyatlarının dəyişməsi | 15 | 1 910,00 | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin daxilolmalar | | | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaric olmaları | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **1 910,00** | **-** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması)** | | **257 898,15** | **-** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | 12 | **206,27** | |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | 12 | **258 104,42** | |
| **İl ərzində artım/azalma** | | **257 898,15** | **-** |

# POS-terminalların sayı bir aya 1 305 ədəd artıb



Banklar və "Azərpoçt" MMC-nin ödəniş xidməti şəbəkələri üzrə dinamik artım müşahidə olunur. Belə ki, keçən ilin iyul ayının sonu ilə müqayisədə bankomatların sayı 2.6%, POS-terminalların sayı 17.1% artıb.
Bu barədə Azərbaycan Mərkəzi Bankı məlumat yayıb.
2023-cü ilin iyul ayında ötən ay ilə müqayisədə Azərbaycanda POS-terminalların sayı 1 305 ədəd artaraq 83 080 ədəd təşkil edib.
POS-terminalların 56 635 ədədi (621 ədəd artım) Bakı şəhərində, 26 445 ədədi (684 ədəd artım) regionlarda yerləşir.

# Azərbaycanda bank müştəri hesablarının sayı artdı

2023-cü il avqust ayının 1-nə Azərbaycanda bank müştərilərinin sayı illik müqayisədə 7% və ya 921.9 min nəfər artaraq,14 milyon 63,765 min nəfər olub.
Trend Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, cari ilin avqustun 1-nə bank müştəri hesablarının sayı illik müqayisədə 20.8% və ya 6 milyon 173.7 min ədəd artaraq 35 milyon 898,1 min ədəd təşkil edib.
Qeyd edək ki, bu dövrdə müştəri hesablarının 79.6%-ni cari hesablar (28 mln. 567.6 min), 19.6%-ni kredit hesabları (7 milyon 22.4 min), 0.8%-ni isə depozit hesabları (308 min) təşkil edib.



# 7 ayda 473,1 min ton qara metal idxal edilib



Bu ilin yanvar-iyul aylarında 473,1 min ton qara metal və ondan hazırlanan məmulatlar idxal edilib.
Trend Dövlət Gömrük Komitəsinə istinadla xəbər verir ki, idxal edilən qara metallar və onlardan hazırlanan məmulatların dəyəri 590,3 milyon dollar olub. Xatırladaq ki, 2022-ci ilin müvafiq dövründə dəyəri 535,8 milyon dollar olmaqla 373,7 min ton qara metal və ondan hazırlanan məmulatlar idxal edilib.
Hesabat dövründə 164,2 min ton plastmas və ondan hazırlanan məmulatlar idxal edilib. İdxal edilən plastmas və ondan hazırlanan məmulatların dəyəri 301,7 milyon dollar olub. Ötən ilin eyni dövründə dəyəri 267,9 milyon dollar olmaqla 119,1 min ton plastmas və ondan hazırlanan məmulatlar idxal edilib.

# Nicat Abasov: Bütün Azərbaycanın dəstəyini hiss edirəm



"İlk oyun mənim üçün rahat oldu. Karuananın səhvindən sonra qələbə qazanmağıma heç nə mane ola bilməzdi".

Bu sözləri Bakıda keçirilən şahmat üzrə Dünya Kubokunda üçüncü yer uğrunda ilk oyunda ABŞ təmsilçisi Fabiano Karuanaya qəlib gələn Nicat Abasov turnirin rəsmi saytına açıqlamasında deyib. 28 yaşlı qrosmeyster rəqibinin gözlənilməz səhvə yol verdiyini bildirib: *"Düzgün gedişlər edərək oyunu qələbə ilə başa vurdum. Belə səhv Karuana kimi güclü şahmatçıya xarakterik deyil. Dünya Kuboku uzun müddətdir davam edir, əksər şahmatçılar yorulub. Fabiano ötən gün tay-brekdə də mübarizə aparıb. Yorğunluq özünü göstərə bilər. Məndə də bir qədər yorğunluq var. Dünən oynamadığım üçün bərpa oluna bildim"*. N.Abasov üçüncü yer uğrunda oyunda sona qədər mübarizə aparacağını söyləyib: *"Sabah cavab oyunudur. Arxayınlaşmaq olmaz. Mənə dəstək olan hər kəsə təşəkkür edirəm. Bütün Azərbaycanın dəstəyini hiss edirəm. Üçüncü yer uğrunda mübarizə çox vacibdir. İlk üçlükdə olmaqla İddiaçılar Turnirində iştirakımı rəsmiləşdirmək istəyirəm"*.

# FIDE hakimi: "Dünya şahmatı bu turnirdə Nicat Abasovu qazandı"

***Bakıda keçirilən şahmat üzrə Dünya Kuboku başa çatmaq üzrədir. Dünyanın diqqət mərkəzində olan turnir üçün idmançılar və nümayəndələrlə yanaşı, bir çox tanınmış mütəxəssis də Bakıya təşrif buyurub.***



Onlardan biri də Beynəlxalq Şahmat Federasiyasının (FIDE) hakimi Boris Postovskidir. SSRİ çempionu olan 86 yaşlı mütəxəssis 1990-2000-ci illərdə Rusiya millisinin baş məşqçisi olub. Onun rəhbərliyi altında komanda 4 dəfə Şahmat Olimpiadasının qızıl medalını, 1997-ci ildə isə dünya çempionluğunu qazanıb. 2001-ci ildən ABŞ-da yaşayan B.Postovski 2004 və 2005-ci illərdə ABŞ millisinin kapitanı kimi olimpiada və dünya çempionatında iştirak edib. Adı FIDE-nin "Qızıl Kitabı"na düşən Boris Postovski "Report"a müsahibəsində Bakıda keçirilən Dünya Kuboku ilə bağlı təəssüratlarını bölüşüb.

**- İlk növbədə Bakıda təşkil edilən Dünya Kuboku ilə bağlı düşüncələrinizi bölüşərdiniz.**

- Sizə onu deyə bilərəm ki, bu turnirdən ləzzət aldım. Dünya Kubokunu ən amansız, maraqlı turnir hesab edirəm. Çünki burada əsl mübarizə gedir. Kimsə rəqibinə güzəştə gedə bilməz. Proqnozları alt-üst edən turnir olur. Dünya Kuboku yeni ulduzlar kəşf edir. Bunu indi hiss etməyə bilərik. Kim təsəvvür edə bilərdi ki, bolqarıstanlı qadın şahmatçı Nurgül Salimova finala çıxacaq? Heç kim bunu gözləmirdi.

**- Nicat Abasovun kişilərin yarışında yarımfinala qədər irəliləməsi kimi?**

- Əlbəttə. Dünya şahmatı bu turnirdə Nicat Abasovu qazandı. Özü üçün əla nəticə göstərdi.

**- Təşkilatçılıq ürəyinizcə oldumu?**

- Təşkilatçılıq mükəmməldir. Mən əvvəlki yarışda da olmuşam. Təşkilatçılıq baxımından arada dağlar qədər fərq var. Həmin vaxt da təşkilatçılıq pis deyildi. Ancaq indi hər şey kompakt şəkildə təşkilatlanıb. Oyunlar da mükəmməl alındı. Ümumiyyətlə, Azərbaycan şahmatının tarixi keçmişi var. Hələ 1970-ci illərdə burada olmuşam. O dönəmdən Harri Kasparovu yaxşı tanıyıram. Həmçinin 2016-cı ildə olimpiada üçün Bakıya gəlmişəm. Bu üzdən burada yarış həmişə gözlədiyim kimi möhtəşəm keçir.

**- Dünya Kubokunda artıq finalçılar bəllidir. Favoritiniz kimdir?**

- Mən hələ əvvəldən qadınlarda Aleksandra Qoryaçkinanı, kişilərdə isə Maqnus Karlseni favorit qismində görmüşəm. Qoryaçkinanın bu yarışı asanlıqla qazandığını düşünürəm. Ancaq finalda hətta məğlub ola da bilərdi. Nurgül Salimova ona layiqli müqavimət göstərdi.

**- Söhbətin əvvəlində dediniz ki, Dünya Kuboku yeni ulduz kəşf edir. Nicat Abasovu bu siyahıya salmaq olar?**

- Nicatın çıxışı mənə xoş gəlir. Ciddi və səliqəli oyunu ilə diqqət çəkir. Finalın bir addımlığında dayandı. Hətta yarımfinalda Karlsenlə başabaş mübarizə apardı. İlk partiyada qələbə qazana da bilərdi. İkinci partiyanı isə gözəl keçirdi. Məlum məsələdir ki, Nicat hələ üzərində çox çalışmalıdır. İddiaçılar Turnirinə vəsiqə qazansa, onun üçün əla təcrübə olar. Azərbaycan Şahmat Federasiyasının prezidenti Mahir Məmmədovu təbrik etmək istəyirəm ki, Rusiyadan iki güclü mütəxəssisi buraya gətirib. Onlardan biri olan Yevgeni Tomaşevski fantastik məşqçidir, onu yaxşı tanıyıram. Abasovun uğurlu çıxışında onun əməyini də qeyd etmək lazımdır. Fikrimcə, Nicatın heç də pis şansları yoxdur.

**- Ötən əsrin 70-ci illərindən bəri Bakıya bir neçə dəfə gəldiyinizi qeyd etdiniz. Paytaxtımız çox dəyişib?**

- Bəli, çox dəyişib. Hər dəfə gələndə buranı tanımaq olmur. Təəssüf ki, budəfəki səfərim zamanı çox gəzə bilmədim. Çünki hava çox istidir. Olimpiada vaxtı gəldiyim dönəmlə indiki arasında belə, fərqlər var. Bakı möhtəşəm, müasir şəhərdir. Buraya gəlməyimə şərait yaratdığı üçün Azərbaycan Şahmat Federasiyasına təşəkkürümü bildirirəm. İstər Mahir Məmmədovla, istərsə də azərbaycanlı şahmatçılarla münasibətim çox yaxşıdır. Bir sözlə, burada olmaqdan həzz alıram.

# "Bakcell"in baş sponsorluğu ilə 3-cü "YAŞAT" düşərgəsi davam edir





"Bakcell"in baş sponsorluğu, "YAŞAT" Fondunun və "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə keçirilən və Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan 3-cü "YAŞAT" düşərgəsi davam edir.

Şamaxı rayonunda, "Shamakhi Palace Sharadil" otelində təşkil olunan və 7 həftə davam edəcək düşərgədə 350-dən çox uşaq iştirak edir.

Düşərgə ərzində uşaqlar üçün interaktiv təlimlər, tanınmış şəxslər ilə görüşlər, ekskursiyalar, təlim və konsultasiyalar, eləcə də əyləncəli konsert proqramları keçirilir.

Bu dəfə, düşərgənin qonağı "Bakcell" şirkəti olub. "Bakcell" uşaqlar üçün "Cizgi filmini yaradıram" mövzusunda proqramlaşdırma master-klası təşkil edib. Uşaqlar "Scratch" proqramlaşdırma platformu üzərində öz qısa cizgi filmini kodlaşdırıblar. Bu fəaliyyət düşərgə iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

Şəhid və qazilərin ailə üzvlərinə qayğı və diqqətin göstərilməsi "Bakcell" şirkətinin KSM proqramının əsas istiqamətlərindən biridir.

"Bakcell" şirkəti NEQSOL Holding-in tərkibinə daxildir.

Məlumat üçün bildirək ki, şəhid və qazi ailələrinə dəstək NEQSOL Holding və "YAŞAT" Fondu arasında bu ilin əvvəlində imzalanan Anlaşma Memorandumu çərçivəsində həyata keçirilir. Memoranduma əsasən, NEQSOL Holding "YAŞAT" Fonduna bu il üçün 500 min AZN vəsait ayırıb. Vəsait hesabına il ərzində şəhid ailələrinə və qazilərə müxtəlif sosial dəstək göstərilir, eləcə də bir sıra xüsusi layihələr həyata keçirilir.

Qeyd edək ki, "Bakcell" şirkəti hazırda "Bakcell" ilə ən sürətli ol" şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirir.

# Tibbi Xidmət idarəsinin və Mərkəzi Gömrük Hospitalının əməkdaşları "Heydər Əliyev zirvəsi"nə yürüş ediblər



Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları milli tariximizin ən qüdrətli siması olan görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünü qeyd edir. 20 avqust 2023-cü il tarixində Azərbaycan Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin təşkilatçılığı ilə müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş "Heydər Əliyev zirvəsi"nə ənənəvi yürüş təşkil olunub.

Yürüşdə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının İnformasiya Texnologiyaları şöbəsi-mühəndis-proqramlaşdırıcı Natiq Orucov, Alqı-satqı və təchizat şöbəsinin satınalmalar üzrə mütəxəssi Əlişir Mirzəyev, Radiologiya şöbəsinin böyük tibb bacısı İradə Tağıyeva və Kardiologiya şöbəsinin tibb bacısı Ruhəngiz Axundova iştirak ediblər. Yürüşün əsas məqsədi ümummilli liderin anımı, sağlam həyat tərzini təbliğ etməkdir.

Bakıdan hərəkətə başlayan yürüş iştirakçıları mürəkkəb relyefə malik olan dağlıq ərazini böyük ruh yüksəkliyi və əzmkarlıqla fəth edərək Böyük Qafqaz sıra dağlarının Qızıl Qaya massivində dəniz səviyyəsindən 3751 metr hündürlükdə yerləşən zirvəyə qalxıb, orada dövlət bayrağımızı ucaltmış və Azərbaycan Respublikasının Dövlət Himnini ifa etmişlər.

Uca dağların əzəməti, möhtəşəmliyi hər yerdən aydın görünür. Adını tarixə həkk etdirmiş şəxsiyyətlərin də böyüklüyü, əlçatmazlığı elədir. Onlar cismən bizi tərk etsələr də, ideyaları, əməlləri bu gün də yaşayır və tarixin çətin sınaqlarından keçir, hamı tərəfindən qəbul edilir.

**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi Dilarə Zamanova**

# Mərkəzi Gömrük Hospitalında rezidentlər üçün açıq qapı günü keçirilib



15 avqust 2023-cü il tarixində Mərkəzi Gömrük Hospitalında 2023-2024-cü illər üçün rezidentura qəbulu üzrə müsabiqə şərtlərini ödəyən namizədlər, digər tibb müəssisələrində rezidentura təhsilini davam etdirən və Mərkəzi Gömrük Hospitalında rotasiya keçmək istəyən rezidentlər üçün açıq qapı günü keçirilib. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavinləri Şahlar Mirqasım, İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının baş həkimi Bəxtiyar Musayev, Poliklinika şöbəsinin rəisi Tamilla Əliyeva, Mərkəzi Gömrük Hospitalının müxtəlif tibbi sahələr üzrə şöbə rəisləri, həkimlər, rezidentlər və digər əməkdaşlar iştirak ediblər.

Tədbirin rəsmi açılış hissəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini Şahlar Mirqasım rezidentləri salamlayaraq Mərkəzi Gömrük Hospitalında rezidentlərin yüksəkixtisaslı həkim kimi yetişməsi, öz sahələri üzrə bilik və bacarıqlarının artırılması üçün yaradılan şərait, o cümlədən elmi araşdırmaların aparılması üçün yaradılan imkanlar barədə ətraflı məlumat verib.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini İsmayıl Əfəndiyev bildirib ki, rezidentlər təhsil aldıqları müddətdə müxtəlif beynəlxalq mübadilə proqramlarında iştirak etmək imkanlarından faydalana bilərlər. DGK Tibbi Xidmət İdarəsinin bir çox xarici ölkələrin aparıcı tibb müəssisələri ilə əməkdaşlığı çərçivəsində Türkiyənin Florence Nightingale Xəstəxanalar Qrupunda, Böyük Britaniyanın Birmingem Qadın və Uşaq Hospitalında rotasiya proqramlarında iştirak etməsi üçün yaradılan imkanlar barədə ətraflı məlumat verib.

Baş həkim Bəxtiyar Musayev çıxışında qeyd edib ki, Mərkəzi Gömrük Hospitalı 2008-ci ildən fəaliyyət göstərir və bu müddət ərzində ölkənin qabaqcıl tibb ocaqlarından birinə çevrilib. Mərkəzi Gömrük Hospitalında 2018-ci ildən yaradılmış rezidentura təhsilinin əsas məqsədi gələcəkdə işinin peşəkarı, yüksək nəzəri və təcrübi biliklərə malik, savadlı həkimlər yetişdirməkdir.

Daha sonra Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi Tədris Mərkəzinin mütəxəssisi Şəhla Mirzəzadə Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalının fəaliyyəti barədə, Mərkəzi Gömrük Hospitalının Təcili Tibbi Yardım şöbəsinin təcili yardım həkimi Leyla Fətullayeva, Mama-ginekologiya şöbəsinin mama-ginekoloqu Leyla Qaçaylı, Efferent Nefrologiya şöbəsinin həkimi Şəbnəm Qədiməliyeva rezidentura təhsili müddətində təcrübələri barədə çıxış ediblər.

**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi Dilarə Zamanova**




**Azəri Light və Brent markalı neftin bir barelinin 10 – 23 avqust tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert Maqsud Quliyev**

## ALLAH RƏHMƏT ELƏSİN

Elşən Hacızadə, Əskər Aslanov, Qurban Sadıxov, Namiq Əliyev, Faiq Hüseynov, Gündüz Mirzəyev, Samir Sultanov, Orxan Ağayev, Emil Azadəliyev, Murad İbrahimov, Ülkər Mirbağırlı, Məzahir Qəmbərov, Orxan Zeynalov, Əkrəm Həsənzadə, Afilə Həsənova və Leyla Əlizadə Nazirlər Kabineti Aparatının Sənaye və energetika şöbəsinin əməkdaşı Rəşad Əkbərova qardaşı
**XƏYYAM ƏKBƏROVUN**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500